№ 39 (982) 28 sentyabr - 4 oktyabr 2017-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymət razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# Sənaye Məhəlləsi Neftçala rayonunun inkişafına böyük dəstək olacaqdır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Neftçala Sənaye Məhəlləsinin açılışında iştirak edib.

İqtisadiyyat naziri Şahin Mustafayev görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, dövlətimizin başçısının 2014-cü ildə Neftçalaya səfəri zamanı verdiyi tapşırığa və 2015-ci ilin fevralında imzaladığı müvafiq Sərəncama əsasən, sənaye məhəlləsində yüksək standartlara cavab verən 7 istehsal sahəsi, ikimərtəbəli inzibati bina, texniki və köməkçi binalar tikilib. Hazırda Neftçala Sənaye Məhəlləsində 9 müəssisə və 1 kiçik sahibkarlıq emalatxanası fəaliyyət göstərir. Sənaye Məhəlləsinin iştirakçıları tərəfindən istehsal sahələrinin yaradılmasına 45,3 milyon manat investisiya yatırılıb. Bununla belə, iş adamlarının sənaye məhəlləsinə cəlb edilməsi istiqamətində tədbirlər davam etdirilir və tələbata uyğun olaraq məhəllənin ərazisi genişləndiriləcək. Sənaye Məhəlləsində ümumilikdə 474 daimi iş yeri yaradılıb.

Dövlətimizin başçısı Neftçala Sənaye Məhəlləsində istehsal korpusları və burada fəaliyyət göstərən müəssisələrlə yaxından tanış olmuşdur. Bildirilmişdir ki, məhəllədəki ən böyük müəssisələrdən biri "Azərmaş" ASC – "İran Khodro" birgə avtomobil zavodudur. Azərbaycan-İran birgə müəssisəsinin illik istehsal gücü 10 min avtomobildir. Müəssisədə "İran Khodro" şirkəti 25 faizlik paya malikdir. Müasir texnologiyalar, avadanlıq və mexanizmlər əsasında qurulacaq zavodda "Runna", "Samand", "Soren", "Dena", "Peugeot-206", "Peugeot-207", "Renault-Tondar", "Renault-Pickup" kimi avtomobil modelləri istehsal ediləcək.

Prezident İlham Əliyev Neftçala balıq yemi istehsalı müəssisəsinin fəaliyyəti ilə də tanış olmuşdur.

Dövlətimizin başçısı görüşdə çıxış etmişdir. Öz çıxışında bu sənaye məhəlləsinin fəaliyyətinin həm rayonun iqtisadiyyatına, həm ölkə iqtisadiyyatına çox böyük təkan verəcəyini vurğulayan Prezident İlham Əliyev qeyd etmişdir: "Bu sənaye məhəlləsinin yaradılması əslində bu istiqamətdə görülmüş işlərin yeni mərhələsinin başlanmasıdır. Çünki bu gün ölkəmizdə sənayeləşmə siyasəti uğurla aparılır, bizim iri sənaye mərkəzlərimizdə - xüsusilə Bakı, Sumqayıt və Gəncə şəhərlərində böyük sənaye müəssisələri yaradılır. İndi Mingəçevir şəhərində böyük sənaye zonası yaradılır və kiçik şəhərlərdə də belə layihələrin icrası çox əlamətdar hadisədir. Böyük şəhərlərdən sonra ilk sənaye zonası Neftçala rayonunda yaradılıb, yaxın vaxtlarda əlavə iki sənaye zonası Masallı və Hacıqabul rayonlarında fəaliyyətə başlayacaq... Dövlət tərəfindən bu zonanın yaradılmasına 20 milyon manatdan çox vəsait ayrılıbdır. Bütün infrastruktur məsələləri həll olunub, modullar inşa edilib və özəl sektora burada fəaliyyətə başlamaq üçün kreditlər verilib. Özəl sektor da kreditlər hesabına və öz vəsaiti hesabına 45 milyon manat sərmayə qoyubdur. Yəni, bu, onu göstərir ki, burada dövlət-özəl sektor tərəfdaşlığı özünü göstərir. Bu zonanın ən böyük müəssisəsi avtomobil zavodudur. Bu zavodun fəaliyyəti nəticəsində biz avtomobil idxalından asılılığı müəyyən dərəcədə aradan götürəcəyik və eyni zamanda, ixrac üçün də imkanlar yaranacaqdır. Bu zavodun yaradılması İran-Azərbaycan tərəfdaşlığının təzahürüdür və çox şadam ki, Azərbaycanda, Neftçalada belə gözəl müəssisə yaradılıb. Mənə verilən məlumata görə, bütövlükdə Neftçala Sənaye Məhəlləsində 500-ə yaxın insan işlə təmin olunacaq. Bu, işsizliyin aradan qaldırılması istiqamətində növbəti addım sayıla bilər. Bilirsiniz ki, bu göstəriciyə görə Azərbaycan dünya miqyasında qabaqcıl ölkələr sırasındadır, Azərbaycanda işsizlik çox aşağı səviyyədədir. Ancaq biz daim yeni iş yerlərinin yaradılması ilə məşğul olmalıyıq. Çünki Azərbaycanda əhali artır. Hər il əhalinin sayı ən azı 100 min nəfər artır.

Gələn ilin İnvestisiya Proqramında dövlət investisiya xərcləri sırasında mütləq yeni bölgələrdə sənaye zonalarının yaradılması nəzərdə tutulmalıdır. Müvafiq göstəriş verilib və bölgələrdə yaşayan, fəaliyyət göstərən sahibkarlar, iş adamları da əlbəttə ki, bu zonaların yaradılmasında fəal iştirak etməlidirlər. Çünki burada, yəni, istehsal sahəsinə yatırılan sərmayə özəl sektor tərəfindən qoyulur. Əlbəttə, qeyd etdiyim kimi, dövlət də daim öz dəstəyini göstərəcək. Dövlət bu ərazini seçib, burada infrastruktur layihələrini icra edib, modul konstruksiyaları inşa edib, sahibkarları səfərbər edib, güzəştli şərtlərlə kreditlər verib ki, onlar yaxşı iş görsünlər.

* * * * *

**Neftçala**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də 110/35/6 kV-luq "Neftçala" yarımstansiyasının açılışında iştirak edib, Neftçala Mərkəzi Rayon Xəstəxanasında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub, Kür çayından Neftçala magistral kanalı vasitəsilə Neftçala rayonunun əkin sahələrinə suvarma suyunun verilməsi mərasimində iştirak edib, Neftçala rayonu ərazisində fermer Əlihüseyn Hacıyevin pambıq sahəsi ilə tanış olub.

# Müasir texnologiyalara və qabaqcıl təcrübəyə əsaslanan sənaye parkı açıldı

Ölkəmizdə təkrar istehsal sahəsində sahibkarlar və potensial investorlar üçün əlverişli şərait yaratmaq məqsədilə Prezident İlham Əliyevin 2011-ci il dekabrın 28-də imzaladığı Sərəncam ilə Balaxanı Sənaye Parkı yaradılıb. Sərəncamla İqtisadiyyat Nazirliyinin "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti Balaxanı Sənaye Parkının idarəedici təşkilatı təyin edilib və Parkın yaradılması üçün Balaxanı qəsəbəsində 7 hektar torpaq sahəsi ayrılıb. Həmçinin, Balaxanı Sənaye Parkının rezidentlərinə, digər sənaye parklarının rezidentləri kimi dövlət tərəfindən bir sıra güzəştlər edilib. Belə ki, rezidentlər 7 il müddətinə mənfəət, torpaq, əmlak vergisindən azad olunur, sənaye parkında istehsal sahəsinin qurulması və məhsul istehsalı məqsədilə idxal edilən texnika, texnoloji avadanlıq və qurğular ƏDV-dən və idxal rüsumundan azad edilir. Balaxanı Sənaye Parkının ərazisində infrastruktur obyektlərinin qurulması və rezidentlərin tələblərinə uyğunlaşdırılmış istehsalat binalarının tikintisi dövlət vəsaiti hesabına həyata keçirilib. Bundan başqa, Balaxanı Sənaye Parkında rezidentlər üçün xarici və daxili infrastruktur qurulub, yol salınıb, əraziyə elektrik, qaz, su, kanalizasiya və rabitə xətləri çəkilib, lazımi kommunikasiya sistemi yaradılıb, istehsal sahələri, ofis və əməliyyat binası tikilib. Artıq ümumi sahəsi 12 min kvadratmetr olan anqar tipli 15 istehsalat binası rezidentlərin istifadəsi üçün tam hazırdır. Sənaye Parkının Balaxanı bərk məişət tullantılarının zərərsizləşdirilməsi poliqonuna, tullantıların çeşidlənməsi və yandırılması zavodlarına, o cümlədən əsas nəqliyyat qovşağına yaxın olması, logistika, xammal və enerji təchizatına, eləcə də istehsal olunmuş məhsulun asanlıqla satış bazarına çıxarılmasına əlverişli imkan yaradır. Hazırda Balaxanı Sənaye Parkında işlənmiş mühərrik yağlarının, tullantı plastik butulkaların, kağız-karton məmulatların, tullantı plastik materiallarının, süngər tullantılarının təkrar emalı sahələri üzrə qeydiyyata alınan 5 rezident tərəfindən 23 milyon manat investisiya yatırılıb. Balaxanı Sənaye Parkında ilkin mərhələdə ümumilikdə 400-ə yaxın daimi iş yeri yaradılacaq.

AZƏRTAC xəbər verir ki, sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Balaxanı Sənaye Parkının açılışında iştirak edib. İqtisadiyyat naziri Şahin Mustafayev görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat vermişdir.

Prezident İlham Əliyev Balaxanı Sənaye Parkının rəmzi açılışını bildirən lenti kəsmiş və burada yaradılan müəssisələrlə yaxından tanış olmuşdur. Sənaye Parkın rezidentlərindən biri "Az.Ekol." MMC-dir. Müəssisə plastik-PET butulkaların təkrar emalından plastik qırıntıların istehsalı üzrə fəaliyyət göstərəcək. Layihənin ümumi investisiya məbləği 1,5 milyon manatdır. Müəssisənin illik istehsal gücü 1500 tondur. İstehsal sahəsində 30-dan çox daimi iş yeri açılacaq. İstehsal prosesi zamanı plastik butulkalardan alınacaq yüksək keyfiyyətli plastik qırıntıların xarici ölkələrə ixracı nəzərdə tutulur. Gələcəkdə qırıntılardan son məhsul olan plastik ipliyin istehsalı da planlaşdırılır.

Prezident İlham Əliyev Balaxanı Sənaye Parkının digər rezidenti -"Ekokat" MMC-nin fəaliyyəti ilə də tanış olmuşdur. Müəssisə işlənmiş mühərrik yağlarının emalı üzrə fəaliyyət göstərəcək. İnvestisiya qoyuluşu 1 milyon manat təşkil edən müəssisənin illik istehsal gücü 3000 tondur. Rezidentə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 200 min manat məbləğində güzəştli kredit vəsaiti verilib. Bu güzəştli kredit hesabına Türkiyə və Çindən emal avadanlıqları alınıb. Artıq rezident tərəfindən işlənmiş mühərrik yağlarının toplanması və tədarükü üçün müqavilələrin bağlanmasına başlanılıb. Yeni yaradılan müəssisədə işlənmiş mühərrik yağlarının texnoloji və kimyəvi proseslərdən keçirməklə təkrar emalından 88 faiz həcmdə yenidən istifadəyə yararlı mühərrik yağları istehsal etmək mümkündür. Bu yağlar iri tutumlu nəqliyyat vasitələrinin və kənd təsərrüfatı texnikasının mühərriklərində istifadə üçün bütün standartlara cavab verəcək. İstehsal prosesi zamanı baza yağları ilə yanaşı, dizel yanacağı da əldə olunacaq ki, bu da istehsalın yanacağa olan tələbatının ödənilməsinə yönəldiləcək. Qalan neft qalıqları isə asfalt, ruberoid və s. istehsalında bitum əvəzedicisi kimi istifadə oluna bilər. Bundan başqa, ölkəmizdə ildən-ilə sürətlə artan avtomobil və digər texnikalarda istifadə olunmuş mühərrik və ya sürtkü yağlarının təkrar emalı bu yağların kənara atılaraq ətraf mühiti çirkləndirməsinin qarşısını alacaq.

Balaxanı Sənaye Parkının daha bir rezidenti isə fərdi sahibkar Etibar Eminovun "Çapar" poliqrafiya müəssisəsidir. Müəssisə ilə yaxından tanışlıq zamanı bildirildi ki, burada tullantı kağızlardan istifadə olunmaqla çap-poliqrafiya məhsulları istehsal ediləcək. Müəssisənin ümumi investisiya məbləği 1 milyon manatdır, illik istehsal gücü 348 tondur. Artıq müəssisə sifarişlər də qəbul etməyə başlayıb.

Dövlətimizin başçısı Balaxanı Sənaye Parkının daha bir rezidenti - tullantı-plastik məmulatların təkrar emalı nəticəsində müxtəlif plastik qablaşdırma məhsullarının istehsalı ilə məşğul olacaq "METAK" MMC-nin fəaliyyəti ilə də tanış oldu. Müəssisə Ümumi investisiya dəyəri 17 milyon manat olan "METAK" MMC-nin bu layihəsinə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondundan 1,2 milyon manat güzəştli kredit vəsaiti ayrılıb. Güzəştli

# Salyanın sürətli inkişafı təmin edilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Salyan rayonuna səfəri çərçivəsində 110/35/10 kV-luq "Qaraqaşlı" yarımstansiyasının açılışında iştirak edib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə elektroenergetika sahəsində mühüm işlər görülüb. "Qaraqaşlı" yarımstansiyasının tikilməsi Salyan rayonunda 31 min abonentin elektrik təchizatının yaxşılaşdırılmasına, eləcə də bölgədə mövcud olan güc qıtlığının aradan qaldırılmasına səbəb olub. İstehlakçıların fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təchiz edilməsi üçün yeni yarımstansiyanın tikilməsi ilə yanaşı, istismar müddətini başa vurmuş elektrik şəbəkələrinin yenidən qurulması, həmçinin yüksək və aşağı gərginlikli yeni hava xətlərinin çəkilməsi həyata keçirilib. Yarımstansiyanın qidalandırılması məqsədilə 110 kV-luq "Birinci Neftçala" hava xəttinin giriş-çıxış və 110 kV-luq dairəvi elektrik təchizat sxeminin yaradılması üçün 110 və 220 kV-luq qovşaq yarımstansiyaları əlaqələndirilib. Salyan rayonunun su təsərrüfatı üçün tələb olunan 11,5 MVA gücündə 35 kV-luq iki yarımstansiya da məhz bu yarımstansiyadan qidalandırılacaq. Odur ki, "İşıqlı Azərbaycan" layihəsinə uyğun olaraq tikilən "Qaraqaşlı" yarımstansiyası rayonun elektrik enerjisi təchizatında xüsusi önəm daşıyır.

Yeni yarımstansiya Salyan rayonunun böyük hissəsini, xüsusən də dövlət əhəmiyyətli obyektləri - Heydər Əliyev Mərkəzi, Heydər Əliyev Parkı, Salyan Rayon İcra Hakimiyyəti, Mərkəzi Xəstəxana, çoxlu sayda sənaye, təhsil, tibb və məişət təyinatlı obyektləri elektrik enerjisi ilə təmin edir. Bundan əlavə, qeyri-neft sektorunun - kənd təsərrüfatı, sahibkarlıq, sənaye sahələri və digər infrastruktur layihələri üzrə inşa ediləcək obyektlərin elektrik enerjisi ilə təminatı bu yarımstansiyadan həyata keçiriləcək. İşin operativ



və səmərəli aparılması üçün yeni yarımstansiya müasir standartlara cavab verən elektron tipli rele mühafizə və avtomat sistemlər, eleqaz və vakuum tipli avadanlıqla təchiz edilib və məsafədən idarə olunan SCADA dispetçer sisteminə qoşulub.

* * * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Salyan rayonunun Çuxanlı-Gəncəli-Piratman-Parça Xələc-Seyidan avtomobil yolunun açılışında iştirak edib.

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq son illərdə ölkəmizdə yol infrastrukturunun müasirləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir.

Ümumi uzunluğu 30 kilometrdən çox olan yolun 17,4 kilometri Prezident İlham Əliyevin 2014-cü və 2015-ci illərdə imzaladığı sərəncamlara əsasən ayrılan vəsait hesabına yerli icra hakimiyyəti tərəfindən yenidən qurulub. Yolun qalan 12,8 kilometrinin yenidən qurulması isə dövlətimizin başçısının ötən il imzaladığı Sərəncamla "Azəravtoyol" ASC-yə həvalə edilib.

Çuxanlı-Gəncəli-Piratman-Parça Xələc-Seyidan avtomobil yolunun tikintisi 5 mindən çox əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirərək yük və sərnişin daşımasını xeyli yaxşılaşdıracaq, kənd təsərrüfatı məhsullarının rahat şəkildə daşınmasına imkan yaranacaq.

* * * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Salyan rayonunun Xıdırlı kəndində dəniz suyunun duzsuzlaşdırılması kompleksinin fəaliyyəti ilə tanış olub.

Son illər ölkəmizdə su ehtiyatlarından istifadənin yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Bu tədbirlər sırasında Salyan rayonunun Xıdırlı kəndində dəniz suyunu içməli su səviyyəsinə qədər təmizləməyə imkan verən kompleksin yaradılması mühüm əhəmiyyət daşıyır.

Xəzər dənizinin suyunun duzsuzlaşdırılması kompleksi 2013-cü ildə istifadəyə verilib. 2016-cı ildə kompleksdə əlavə tikinti işləri aparılmadan ikinci xətt quraşdırılıb. Hər xəttin istehsal gücü 1000 kubmetrə bərabərdir. Yəni, gün ərzində dənizdən qəbul edilən 2500 kubmetrə yaxın duzlu su müəssisəyə daxil olur və həmin sudan 2000 kubmetr içməyə yararlı su istehsal edilir. Müəssisədə istehsal olunan su içməli su göstəricilərinə tam uyğundur. Ümumiyyətlə, Şirvan kollektoru üzərində quraşdırılan qurğular gündə 5 min kubmetr suyu içməli su həddinə kimi duzsuzlaşdırır. Sutka ərzində duzsuzlaşdırılan 7 min kubmetr su 1750 hektar ərazidə yaşıllıqların suvarılmasına kifayət edir.

# Müasir texnologiyalara və qabaqcıl təcrübəyə əsaslanan sənaye parkı açıldı

kredit vəsaiti hesabına Avropa, Türkiyə və Çindən alınmış istehsal xətləri Sənaye Parkında quraşdırılıb. Müəssisənin illik istehsal gücü



12 min tondur. Burada 140-dan çox daimi iş yeri açılacaq.

Balaxanı Sənaye Parkının rezidentlərindən biri olan "FORİELLA" MMC isə süngər tullantılarının təkrar emalı və mebel istehsalı üzrə fəaliyyət göstərəcək. Ümumi investisiya məbləği 3,5 milyon manat olan müəssisənin yaradılmasına da dövlət tərəfindən dəstək verilib. Belə ki, bu müəssisəyə Sahibkarlığa Kömək Milli Fondundan 2 milyon manat güzəştli kredit ayrılıb. Müəssisənin illik istehsal gücü 3 min dəst qonaq, yataq, mətbəx mebelləri, 100 min ədəd stul, 10 min masa təşkil edir. Müəssisədə 150 nəfər daimi işlə təmin olunacaq.

Bildirilmişdir ki, sahibkarların marağını nəzərə alaraq, Balaxanı Sənaye Parkının fəaliyyətinin genişləndirilməsi işləri davam etdirilir. Artıq polietilen və polipropilen tullantılarının, kartriclərin təkrar emalı və digər tullantıların emalından kömür, qida tullantılarından gübrə və yem, kağız tullantılarından meyvə-tərəvəz üçün qablaşdırma məmulatları istehsalı sahələri üzrə sahibkarlar Balaxanı Sənaye Parkında fəaliyyət göstərmək üçün müraciət ediblər.

* * * * *

Daha sonra Prezident İlham Əliyev Balaxanı bərk məişət tullantılarının zərərsizləşdirilməsi poliqonu ilə tanış oldu.

120 hektar sahəsi olan Balaxanı poliqonunun ərazisində təhlükəsizliyi təmin etmək məqsədilə mühafizə sistemi qurulub, poliqonda torpaqlama, hamarlama işləri aparılıb, ətraf ərazilərdə yaşıllıqlar salınaraq poliqonun görünüşü tamamilə dəyişib. Qeyd edək ki, Heydər Əliyev Fondunun təşəbbüsü, "Təmiz Şəhər" ASC-nin təşkilatçılığı, IDEA İctimai Birliyi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və "Q-Gallery" İncəsənət qalereyasının dəstəyi ilə 2012-ci ildən bəri hər il Qala qəsəbəsində "Tullantıdan sənətə" adlı beynəlxalq sərgilər təşkil edilir. Bu günə qədər keçirilən 5 sərgidə 30 ölkədən 100-dən artıq sənətkar iştirak edib.

Balaxanı şəhər tullantılarının zərərsizləşdirilməsi poliqonuna tullantı gətirən nəqliyyat vasitələri tullantıları boşaltdıqdan sonra yuyulur və dezinfeksiya edilir. 4 kabinədən ibarət olan yuma və dezinfeksiya məntəqəsi beynəlxalq standartlara uyğun qurulub və gün ərzində 400-dən çox maşına xidmət göstərmək gücünə malikdir. "Bərk məişət tullantılarının vahid idarəçiliyi" layihəsi uğurlu icraya görə Dünya Bankının xüsusi mükafatına layiq görülüb.

# İlham ƏLİYEV: Biz xalqımızın milli maraqlarına əsaslanan müstəqil siyasət aparan müstəqil ölkədə yaşayırıq



Sentyabrın 20-də Nyu-Yorkda BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva tədbirdə iştirak ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışında çıxış etmişdir. Həmin çıxışı oxuculara təqdim edirik:

- Cənab sədr.

Xanımlar və cənablar,

25 ildən çoxdur ki, Ermənistan Azərbaycanın 20 faiz ərazisini - Dağlıq Qarabağı və ölkəmizin digər 7 rayonunu işğal altında saxlayır.

Dağlıq Qarabağ Azərbaycanın əzəli və tarixi torpağıdır. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin təxminən 20 faizi işğal altındadır. Bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistan azərbaycanlılara qarşı Ermənistanda, Dağlıq Qarabağda və Azərbaycanın digər 7 rayonunda etnik təmizləmə siyasəti həyata keçirib.

Ermənistan Xocalıda azərbaycanlılara qarşı soyqırımı törədib. Xocalı soyqırımı 10-dan artıq ölkə tərəfindən rəsmən tanınıb. 1992-ci il fevralın 26-da Ermənistan Xocalının 613 dinc sakinini, o cümlədən 106 qadın və 63 uşağı qətlə yetirərək, hərbi cinayət törədib. Bəşəriyyətə qarşı bu dəhşətli cinayəti törədən hərbi kriminallardan biri Ermənistanın hazırkı prezidentidir.

Aparıcı beynəlxalq təşkilatlar Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmasını tələb edən qətnamələr qəbul ediblər. 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurasının Parlament Assambleyası və Avropa Parlamenti kimi digər beynəlxalq təşkilatlar oxşar qərar və qətnamələri qəbul etmişlər. Ermənistan bu qərar və qətnamələri icra etmir. Ermənistan 24 ildir ki, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur və əfsuslar ki, o, buna görə cəzalandırılmır. Bəzi hallarda BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra olunur. Bizə gəldikdə isə 24 ildir ki, qətnamələr icra olunmur. Bu, ikili standarta əsaslanan yanaşmadır. Bu yanaşma qəbuledilməzdir. Ermənistana qarşı beynəlxalq sanksiyalar qəbul edilməlidir. BMT-nin mühüm islahatlarından biri Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizminin yaradılması olmalıdır.

Ermənistan status-kvonun dəyişməz qalması üçün əlindən gələni edir, substantiv danışıqların qarşısını alır. ATƏT-in Minsk qrupunun həmsədrləri - Fransa, Rusiya və ABŞ dəfələrlə bildirmişlər ki, status-kvo qəbuledilməzdir.

Sual verilir: necə olur ki, despotik və orta əsrlər rejiminin idarə etdiyi bu cür korrupsiyaya uğramış, uğursuz dövlət uzun illər ərzində beynəlxalq hüququ pozmağa, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə və dünyanın aparıcı ölkələrinin bəyanatlarına məhəl qoymamağa müvəffəq olur? Buna cavab isə ikili standartlardır. Təcavüzkara heç bir beynəlxalq təzyiq göstərilmir, Ermənistan diktatorluğuna heç bir beynəlxalq sanksiya tətbiq edilmir. Bu siyasətə son qoyulmalıdır.

Təcavüzkara münasibətdə bu cür siyasət təkcə ədalətsizliyi nümayiş etdirmir, eyni zamanda, Ermənistan diktatorluğunda elə bir illüziya yaradır ki, sanki onlar öz terror siyasətini bundan sonra da davam etdirə bilərlər.

Ötən ilin aprelində Ermənistan şəhər və kəndlərimizə hücum edərək, təmas xəttində növbəti hərbi cinayət törətdi. Bu hücum nəticəsində 6 dinc azərbaycanlı qətlə yetirildi, onların sırasında bir uşaq da var idi. Bundan əlavə, 26 mülki şəxs yaralandı. Yüzlərlə evlərimiz dağıdıldı.

Azərbaycan öz vətəndaşlarını müdafiə etməli oldu. Uğurlu əks-hücum nəticəsində Azərbaycan 3 işğal olunmuş rayonda - Ağdərə, Füzuli və Cəbrayılda bir neçə əraziləri azad etdi və öz bayrağını azad edilmiş ərazilərdə qaldırdı. Ermənistan rəhbərliyi bu dərsi yaddan çıxarmamalıdır. Əks təqdirdə, Ermənistanın növbəti təxribatının nəticələri onlar üçün daha ağrılı olacaq.

Döyüş meydanında məğlub olan Ermənistan şəhərlərimizə və kəndlərimizə hücum çəkmək kimi məkrli siyasətindən istifadə edir. 2017-ci il iyulun 4-də Ermənistan 82 və 120 millimetrlik mina və qumbaraatanlardan istifadə edərək, Füzuli rayonunun Alxanlı kəndinə məqsədli hücum etmiş, 2 dinc sakini - 2 yaşlı Zəhra Quliyevanı və onun nənəsini qətlə yetirmişdir.

2017-ci il avqustun 7-də Ermənistanla sərhəddə yerləşən Tovuz rayonunda 13 yaşlı oğlan erməni əsgərləri tərəfindən yaralanmışdır. Beynəlxalq ictimaiyyət erməni faşizminə və terroruna son qoymalıdır. Azərbaycan münaqişənin sülh yolu ilə həllinə sadiqdir, lakin, eyni zamanda, Ermənistanın hərbi təxribatı davam edərsə, ölkəmiz BMT-nin xartiyasına uyğun olaraq, öz vətəndaşlarını qoruyacaq və lazım gələrsə, təcavüzkarı 2016-cı ilin aprelində olduğu kimi yenidən cəzalandıracaq.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa olunmalıdır. Ermənistan işğalının yaratdığı böyük çətinliklərə baxmayaraq, Azərbaycan sürətlə və uğurla inkişaf edir.

Azərbaycan Birləşmiş Millətlər Təşkilatının fəal üzvüdür.

2011-ci ildə Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildi. 155 ölkə Azərbaycana səs verdi. Üzv dövlətlərin tam əksəriyyəti Azərbaycana və onun siyasətinə öz dəstəyini nümayiş etdirdilər. Həmin vaxt cəmi 20 yaşı olan ölkə üçün bu, böyük nailiyyət oldu.

Azərbaycan müasir, sabit və demokratik ölkədir. Demokratiyanın inkişafı və insan hüquqlarının müdafiəsi hökumətimizin əsas prioritetlərindəndir. Azərbaycanda bütün fundamental azadlıqlar, o cümlədən ifadə, mətbuat, yığıncaq və dini azadlıqlar tam şəkildə təmin edilir.

Azərbaycan dünyanın tanınmış multikulturalizm mərkəzlərindən biridir. Multikulturalizm Azərbaycanda dövlət siyasətidir. Bütün etnik qrupların və dinlərin nümayəndələri Azərbaycanda sülh və harmoniya şəraitində yaşayırlar. Azərbaycanda 2016-cı il "Multikulturalizm İli", 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan olunmuşdur.

Ərazisində demək olar ki, milli azlıqlar olmadığı, monoetnik ölkə kimi tanınan və ksenofobiya dövlət siyasəti olan Ermənistandan fərqli olaraq, Azərbaycan çoxmillətli ölkədir, cəmiyyətimizin mədəni, etnik və dini müxtəlifliyi böyük sərvətimizdir. İslamofobiyanı pik həddinə çatdırmış Ermənistan işğal olunmuş ərazilərdə bütün məscidlərimizin dağıdılması kimi bir çox vandalizm aktlarını törətmişdir.

Azərbaycan dinlərarası dialoqun gücləndirilməsinə yönəlmiş çox sayda beynəlxalq tədbirlərə ev sahibliyi etmişdir. Onların sırasında BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunu, Dünya Dini Liderlər Forumunu, dörd dəfə keçirilmiş Mədəniyyətlərarası Dialoq və beş dəfə keçirilmiş Bakı Beynəlxalq Humanitar forumlarını və digər mühüm tədbirləri qeyd etmək olar.

İslam Əməkdaşlıq Təşkilatının və Avropa Şurasının üzvü olan Azərbaycan 2008-ci ildə BMT-nin dəstəklədiyi "Bakı Prosesi"nə start verdi. "Bakı Prosesi"nin əsas məqsədi müsəlman aləmi ilə Avropa arasında dialoqu, tərəfdaşlığı və əməkdaşlığı gücləndirməkdir.

2015-ci ildə Azərbaycan birinci Avropa Oyunlarına ev sahibliyi etdi. 50 ölkədən gəlmiş 6000 atlet həmin Oyunlarda iştirak etdi. 2017-ci ildə Azərbaycan 54 ölkəni təmsil edən təxminən 3000 idmançının iştirakı ilə dördüncü İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etdi.

İki il ərzində paytaxtımız Bakıda Avropa və İslam Oyunları keçirildi. Bu, həmçinin multikulturalizmin təşviq edilməsinə böyük töhfə oldu. Azərbaycan yığması birinci Avropa Oyunlarında ikinci yeri, İslam Həmrəyliyi Oyunlarında isə birinci yeri tutdu. Bu, göstərir ki, Azərbaycan dünyanın aparıcı idman ölkələrindən biridir. İdman nailiyyətlərimizin digər sübutu Azərbaycanın "Rio 2016" Olimpiya Oyunlarında medalların sayına görə 14-cü yeri tutması oldu. Bütövlükdə, Azərbaycan 18 medal qazandı.

### Azərbaycan sosial və iqtisadi sahələrdə böyük inkişafa nail olub

2004-cü ildən başlayaraq Azərbaycanın iqtisadiyyatı 3 dəfədən çox artmış, ölkəmizdə 1 milyon 600 mindən artıq iş yeri açılmışdır. İşsizlik səviyyəsi dünyada ən aşağı göstəricilərdən biridir – 5 faiz. Prioritetlərimizdən biri yoxsulluğun azaldılması idi. 2004-cü ildə yoxsulluğun səviyyəsi 40 faizdən artıq idi. İndi bu, cəmi 5-6 faizdir. Nağd valyuta ehtiyatlarımız ölkənin ÜDM-nə bərabərdir. Xarici dövlət borcu ÜDM-in 20 faizindən azdır.

2009-cu ildə Azərbaycan Dünya Bankının "Doing Business" hesabatında "Dünyanın aparıcı islahatçı ölkəsi" kimi qiymətləndirilmişdir. Davosun Dünya İqtisadi Forumunun "2016-2017-ci illər üzrə qlobal rəqabətə davamlılıq hesabatında" Azərbaycan 138 ölkə sırasında 37-ci yer tutmuşdur.

2015-ci ildə Azərbaycan Minilliyin İnkişaf Məqsədlərinin icrasında əldə etdiyi böyük nailiyyətinə görə həmin ilin "Cənub-Cənub" mükafatını almış və 2010-cu ildən etibarən yüksək insan inkişafı kateqoriyalı ölkələr sırasına daxil edilmişdir.

Azərbaycanın kosmik sənayesinin sürətli inkişafı, 2 telekommunikasiya və yer səthinin müşahidəsi peykləri – "Azerspace" və "Azersky" və bu yaxınlarda buraxılacaq "Azerspace-2" adlanan üçüncü peyk ölkəmizin dünya kosmik klubunun üzvləri sırasına daxil olmasını mümkün etdi.

Bu gün Azərbaycan nəinki sənaye və kənd təsərrüfatı, o cümlədən əqli məhsullarını ixrac edir. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi – "ASAN xidmət" ictimai münasibətlərin və xidmətlərin müasir modelidir.

Eyni yerdə 251 xidmətin göstərilməsi, tam şəffaflıq, korrupsiya və rüşvətxorluğun sıfıra endirilməsi "ASAN xidmət"i bir çox ölkələr üçün cəlbedici edib.

Sırf Azərbaycan brendi olan "ASAN xidmət" yaradıldığı gündən ötən 5 il ərzində 5 milyon insana 1 milyon 600 min xidmət göstərib. Müraciətlərin ümumi sayı 17 milyona çatıb. "ASAN xidmət"in ictimaiyyət tərəfindən bəyənilməsi 98 faiz təşkil edir.

2015-ci ildə dövlət xidmətlərinin əhəmiyyətli dərəcədə sadələşdirilməsinə, təkmilləşməyə verdiyi töhfəsinə və yaradıcı olmağına görə "ASAN" Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidməti Mükafatına layiq görülmüşdür.

Siyasətimizin əsas məqsədi vətəndaşlarımızın rifah halının daha da yaxşılaşdırılmasıdır. 2004-cü ildən etibarən ölkəmizdə əmək haqları 5,6 dəfə, pensiyalar isə 8,2 dəfə artmışdır.

Xarici maliyyə dəstəyi olmadan biz erməni işğalından əziyyət çəkən qaçqın və məcburi köçkünlər üçün təxminən 100 yeni qəsəbə və şəhərcik salmışıq. Bu günə qədər 250 mindən artıq insanın həyat şəraiti yaxşılaşdırılıb, onlara yeni evlər və mənzillər verilib. Həmin şəhərcik və qəsəbələrdə 152 məktəb, 59 tibb mərkəzi və 60 bağça tikilmişdir.

Ümumilikdə, 2004-cü ildən başlayaraq 3000-dən artıq məktəb, 600-dən çox xəstəxana və tibb mərkəzləri tikilmiş, yaxud təmir edilmişdir. Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Hər il 5 milyondan artıq insan, yəni ölkə əhalisinin yarısı tamamilə dövlət büdcəsindən maliyyələşən tibbi yoxlamadan keçir.

Azərbaycan qlobal enerji bazarında mühüm rol oynayır. Beynəlxalq bazarlarda etibarlı neft və qaz təchizatçısı olan Azərbaycan dünyanın bir çox ölkələri üçün enerji təhlükəsizliyini təmin edir. Bu gün Azərbaycan öz beynəlxalq tərəfdaşları ilə birlikdə "Cənub Qaz Dəhlizi" layihəsinin başa çatdırılmasına çox yaxındır. Sərmayələrinin həcmi 40 milyard dollara çatan bu layihə dünyanın ən iri infrastruktur layihələrindən biridir.

Digər mühüm prioritet nəqliyyatdır. Avropa ilə Asiya arasında yerləşən Azərbaycan Avrasiyada aparıcı nəqliyyat qovşaqlarından birinə çevrilmək istiqamətində öz coğrafi mövqeyindən müdrikcəsinə istifadə edir.

Son illərdə Azərbaycanda 6 beynəlxalq hava limanı tikilmiş, 11 min kilometr müasir şosse və yollar çəkilmişdir. Xəzər dənizində Azərbaycanın 270 gəmidən ibarət ən iri ticarət donanması var. Azərbaycanda müasir gəmiqayırma zavodu bütün növ və ölçüdə gəmiləri tikməyə qadirdir. Azərbaycan özünün dəmir yol infrastrukturunu müasirləşdirir. Ərazimizin tam əksəriyyəti dəmir yolları ilə əhatə olunur. Gələn il biz Xəzər regionunda ən iri beynəlxalq dəniz ticarəti limanını istismara verəcəyik.

Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinə böyük sərmayələr yatırır. Ölkəmizdən keçən hər iki marşrut Şərqdən Qərbə, Şimaldan Cənuba gedən ən qısa yollar olacaq.

Sonda bildirmək istərdim ki, ötən il biz müstəqilliyimizin bərpasının 25-ci ildönümünü qeyd etdik. Azərbaycanın uğurlu inkişafı bir daha göstərir ki, yalnız azad və müstəqil olduqda, ölkənin taleyi öz xalqının əlində olduğu halda uğur əldə etmək olar. Azərbaycan xalqının ən böyük xoşbəxtliyi ondan ibarətdir ki, biz xalqımızın milli maraqlarına əsaslanan müstəqil siyasət aparan müstəqil ölkədə yaşayırıq.

## “Azərbaycan iqtisadiyyatının strateji yol xəritəsi: hesabatlılıq və şəffaflıq problemləri” mövzusunda beynəlxalq elmi-praktiki konfransın iştirakçılarına

**Hörmətli konfrans iştirakçıları!**

Sizi səmimi qəlbdən salamlayır və “Azərbaycan iqtisadiyyatının strateji yol xəritəsi: hesabatlılıq və şəffaflıq problemləri” mövzusunda beynəlxalq elmi-praktiki konfransın işə başlaması münasibətilə təbrik edirəm.

Bu gün Azərbaycan ictimai-siyasi cəhətdən sabit, iqtisadi gücü sürətlə artan və irimiqyaslı layihələr icra edən ölkədir. Qlobal və regional səviyyədə mövcud olan çətinliklərə, dünya bazarında neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, həyata keçirilmiş əsaslı islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatının dinamik inkişafı qorunub saxlanmışdır.

Bu inkişaf tempinin davam etdirilməsində dövlət idarəetmə sisteminin ən mühüm alətlərindən olan hesabatlılıq və şəffaflığın gücləndirilməsinin böyük əhəmiyyəti vardır. Təsadüfi deyil ki, Azərbaycan iqtisadiyyatının qısa, orta və uzunmüddətli inkişaf hədəflərinin müəyyənləşdirildiyi “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri” sənədində bu sahəyə xüsusi diqqət yetirilmiş və çoxsaylı tədbirlər müəyyən edilmişdir.

Ölkəmizdə maliyyə nəzarətinin, o cümlədən müstəqil auditin normativ hüquqi bazasının beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi, bütövlükdə maliyyə və vergi intizamının möhkəmləndirilməsi maliyyə vəsaitlərindən istifadə olunmasında hesabatlılıq və şəffaflığın daha da artırılması üçün böyük əhəmiyyət kəsb edir. Bu baxımdan iştirakçısı olduğunuz konfransda iqtisadi inkişafın mühüm amili kimi şəffaflığın artırılması və hesabatlılığın beynəlxalq standartlar əsasında yüksək səviyyədə qurulması ilə bağlı məsələlərin müzakirəsi təqdirəlayiqdir.

İnanıram ki, konfrans çərçivəsində aparılacaq müzakirə və təhlillər ölkəmizdə hesabatlılığın və auditin gələcək inkişafı kontekstində faydalı olacaq, iqtisadi inkişafın müasir mərhələsində şəffaflığın təmin edilməsində, korrupsiyaya qarşı mübarizədə dövlət və qeyri-dövlət nəzarətinin, müstəqil auditin rolunun daha da artırılmasına töhfə verəcək, mütərəqqi dünya təcrübəsinin öyrənilməsi və tətbiqi üçün yeni imkanlar yaradacaqdır.

Konfransın işinə uğurlar arzulayıram.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı, 22 sentyabr 2017-ci il.**

## "Azərbaycan iqtisadiyyatının strateji yol xəritəsi: hesabatlılıq və şəffaflıq problemləri" mövzusunda beynəlxalq konfrans keçirilib

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla həyata keçirilən iqtisadi inkişafın dayanıqlılığını və davamlılığını təmin edə biləcək mühüm bir sənəd kimi dəyərləndirilən *"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi"*ndə nəzərdə tutulmuş kompleks tədbirlər sırasında hesabatlılığın təkmilləşdirilməsi və şəffaflığın artırılması xüsusi vurğulanıb.

Bu sahədə mövcud problemlərin həlli yollarını araşdırmaq, qabaqcıl təcrübədən bəhrələnməklə müvafiq tövsiyələrin hazırlanması məqsədilə **Auditorlar Palatası və Azərbaycan İqtisadçılar İttifaqının təşkilatçılığı ilə sentyabrın 22-də "Azərbaycan iqtisadiyyatının strateji yol xəritəsi: hesabatlılıq və şəffaflıq problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.** Konfransda 15 ölkənin 65 qurumundan 150 nümayəndə iştirak edib.

Konfransda çıxış edən **Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə** son dövrlər ölkəmizdə həyata keçirilən iqtisadi islahatlardan, yenidənqurma və quruculuq işlərindən, hesabatlılıq və şəffaflıq sahəsində aparılan işlərin əhəmiyyətindən danışıb. Bildirib ki, dünyada baş verən hadisələri izləyərkən şəffaflığın pozulmasının, korrupsiyaya qarşı mübarizənin zəif olmasının dünyanın bir çox ölkələrində təlatümlü problemlər yaratdığını, sosial gərginliyi artırdığını, bütövlükdə iqtisadi tərəqqinin qarşısını aldığını görürük.

Ziyad Səmədzadə deyib ki, Azərbaycanda iqtisadi islahatların yeni mərhələsinin başlanması ilə əlaqədar gərgin işlər aparılır. Strateji yol xəritəsi mühüm fundamental sənəddir, iqtisadi inkişafın, sosial həyatın bütün sahələrini əhatə edir. Bu yaxınlarda aparılan monitorinq və qiymətləndirmələr bir daha sübut edir ki, Azərbaycanda dövlət nəzarət sistemi uğurla davam etdirilir, sistemin təkmilləşdirilməsi istiqamətində cəsarətli addımlar atılır. Bütün bunlar ölkəmizdə iqtisadi inkişafın, sosial tərəqqinin daha da genişlənməsinə imkan yaradacaq.

**Azərbaycan Respublikası Prezidentinin iqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi - şöbə müdiri Natiq Əmirov** qeyd edib ki, 2016-cı ilin dekabrında Prezident İlham Əliyev tərəfindən "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi" təsdiq olunub. Dövlətimizin başçısının iqtisadi siyasətinin, o cümlədən strateji yol xəritəsinin əsasını da hesabatlılıq və şəffaflıq prinsipi təşkil edir. Bu yaxınlarda ölkə başçısının tapşırığı ilə strateji yol xəritələrinin bu ilin altı ayında icrasının ilkin nəticələri, monitorinq və qiymətləndirmə nəticələri açıq şəkildə mətbuatda dərc olunub. Bugünkü tədbir Prezident İlham Əliyev tərəfindən çox yüksək qiymətləndirilir. Bu tədbirdə beynəlxalq nümayəndələrin iştirakı dövlətimizin başçısı tərəfindən Azərbaycanda həyata keçirilən islahatlara, o cümlədən hesabatlılıq və şəffaflıq tədbirlərinə olan diqqəti özündə ehtiva edir.

Azərbaycan Respublikası Prezidentinin iqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi - şöbə müdiri Natiq Əmirov Prezident İlham Əliyevin tədbir iştirakçılarına ünvanladığı müraciətini oxuyub.

**Auditorlar Palatasının sədri Vahid Novruzov** deyib: "Dünya iqtisadiyyatında baş verən təlatümlər iqtisadiyyatın tənzimlənməsində və idarə edilməsində bir sıra problemlərin aktuallığını daha da artırıb ki, bunların da içərisində şəffaflığın yüksəldilməsi, bununla əlaqədar hesabatlılığın, uçotun və nəzarət sisteminin təkmilləşdirilməsi müstəsna əhəmiyyət daşıyır. Bugünkü tədbir bu problemlərin həllində ölkəmizin elmi-praktik potensialından bəhrələnmək məqsədi daşıyır".

V.Novruzov diqqətə çatdırıb ki, bugünkü tədbirdə mövcud problemlər göstərilməklə bərabər, müasir şəraitdə iqtisadiyyatda hesabatlılığın və şəffaflığın səviyyəsinin yüksəldilməsi üzrə çox mühüm konkret təklif irəli sürülüb ki, onlar da konfransımızın tövsiyələrinə daxil edilib. Ümidvarıq ki, tövsiyələrin tətbiqi ölkəmizin müasirləşməsinə və zənginləşməsinə yönəldilən yol xəritəsində nəzərdə tutulan islahatların reallaşmasına öz töhfəsini verəcək və burada iştirak edən beynəlxalq qurumların nümayəndələri əldə etdiyi təcrübəni öz ölkələrində tətbiq etmək imkanı qazanacaqlar.

**Azərbaycan Respublikasının baş prokurorunun müavini, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş idarəsinin rəisi Kamran Əliyev** qeyd edib ki, korrupsiyaya qarşı mübarizə elə bir məsələdir ki, burada ən əsas amil siyasi iradədir. Tam əminliklə deyə bilərik ki, Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə sahəsində düzgün siyasi iradə mövcuddur. Prezident İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətinin tərkib hissəsi məhz korrupsiyaya qarşı mübarizədir. 2003-cü ildən etibarən Azərbaycan Respublikası güclü siyasi iradə nümayiş etdirərək bu sahədə mövcud olan bütün beynəlxalq və regional konvensiyalara qoşulub. Həmin bu konvensiyalara qoşulmaqla yanaşı, hətta onların bütün müddəaları Azərbaycan qanunvericiliyinə implementasiya edilib. Hazırda əminliklə deyə bilərik ki, respublikamızda korrupsiyaya qarşı mübarizə sahəsində çox mütərəqqi və müasir qanunvericilik bazası mövcuddur. Qanunvericilik məsələsi daim dinamik bir prosesdir.

K.Əliyev deyib ki, korrupsiyaya qarşı mübarizə sahəsində 2003-cü ildən bu günədək 3 dövlət proqramı qəbul edilib, onların müddəaları müvəffəqiyyətlə icra edilib. Hazırda "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üzrə ən son Milli Fəaliyyət Planı" mövcuddur. Biz hazırda onun implementasiyası ilə məşğuluq. "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üzrə ən son Milli Fəaliyyət Planı" da özündə korrupsiyaya qarşı mübarizə məsələlərini ehtiva edir.

Azərbaycanda mövcud olan güclü antikorrupsiya sahəsində siyasi iradə qanunvericilikdən başqa digər mühüm məsələlərə də söykənir. Onlar bazalar üzərində qurulub ki, bu da, ilk növbədə, idarəçilikdə şəffaflıqdır. İdarəçilikdə şəffaflıq deyəndə korrupsiyaya qarşı mübarizə sahəsində səmərəli qabaqlayıcı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

"Prezident İlham Əliyevin təşəbbüsü ilə 2012-ci ildə yaradılmış Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ("ASAN xidmət") mərkəzlərinin səmərəli fəaliyyətini xüsusi qeyd etməliyik. Əminliklə deyirəm ki, “ASAN xidmət"in yaranmasından və bu qurumun Azərbaycanın müxtəlif coğrafi ərazilərini və fəaliyyət sahələrini əhatə etdikdən sonra həmin sahələrdə korrupsiya sıfıra enib. Biz bunu gündəlik fəaliyyətdə də görürük. Əgər əvvəllər Baş Prokurorluğa bu və ya digər xidmət sahəsi ilə bağlı şikayətlər daxil olurdusa, artıq "ASAN xidmət" mərkəzlərinin əhatə etdiyi sahələrdə və regionlarda bununla bağlı bizə heç bir məlumat daxil olmur. "ASAN xidmət" mərkəzləri alternativ xidmət növüdür. "ASAN xidmət" Azərbaycan brendi kimi qəbul edilib. Prezident İlham Əliyev bu xidmətlərin inkişafına xüsusi diqqət yetirir", - deyə K.Əliyev qeyd edib.

Azərbaycan güclü iqtisadiyyata malikdir. Ölkəmizdə bütün sahələrdə inkişaf davam edir. Biz öz fəaliyyətimizdə çalışırıq ki, iqtisadi islahatların həyata keçirilməsində yaxından iştirak edək və öz təkliflərimizi verək.

**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru Ədalət Muradov** "Şəffaflığın təmin edilməsində insan kapitalı amili" mövzusunda məruzə ilə çıxış edib. Qeyd edib ki, iqtisadiyyatda şəffaflığın artırılması və informasiyaya çıxış imkanlarının genişləndirilməsi prosesi fasiləsiz prosesdir. Bu baxımdan da bütün ölkələr üçün daim aktual mövzular sırasındadır. Azərbaycanın Strateji Yol Xəritəsində də iqtisadiyyatda şəffaflığın və açıqlığın artırılması prosesinə xüsusi yer verilib. Belə ki, qeyd olunan sənəddə fiskal siyasətin səmərəliliyinin yüksəldilməsi, qanunların icra mexanizminin təkmilləşdirilməsi istiqamətində şəffaflıq və hesabatlılıq məsələlərinə xüsusi önəm verilib. Biznes mühitinin cəlbediciliyinin artırılması və bununla bağlı konkret tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

Ə.Muradov deyib: "Tədqiqatlar göstərir ki, iqtisadiyyatın sərbəst düşüncəli və demokratik prinsiplərə yiyələnmiş peşəkar kadrları artdıqca həmin iqtisadiyyatda açıq və şəffaflıq səviyyəsi də yüksəlir. Bu gün ölkədə insan kapitalı, ilk növbədə, təhsil sistemi ilə bağlıdır və qarşıda duran əsas vəzifə kimi dayanır. Təhsil müəssisəsi insan kapitalının formalaşdırılması üzrə ixtisaslaşmış müəssisədir".

"SOCAR yüksək işgüzar nüfuzuna mənfi təsir edəcək, onun bazardakı mövqeyini zəiflədəcək halların önünə keçmək üçün şəffaflığın artırılması ilə bağlı səylərini daha da artırıb. Şirkət korrupsiya ilə mübarizə fəaliyyətinin artırılması üzrə standartlar hazırlayaraq tətbiq edir. Hər bir standartda şəffaflığın artırılması əsas götürülməklə korrupsiya ilə mübarizə, bu halların minimuma endirilməsi və digər müxtəlif məqamları əks olunub", - deyə **SOCAR-ın iqtisadi məsələlər üzrə vitse-prezidenti Süleyman Qasımov** bildirib.

S.Qasımovun sözlərinə görə, SOCAR korporativ idarəetmə prinsiplərinin tətbiqi istiqamətində beynəlxalq təcrübədən yararlanır: "Bu prinsiplər əsasən SOCAR-ın idarəetmə orqanlarının vəzifə və səlahiyyətlərini müəyyən etməklə fəaliyyətindəki effektliyin artırılmasına, aparılan əməliyyatların şəffaflığının təmin olunmasına şərait yaradıb. Həmin prinsiplər həm də idarəetmənin qabaqcıl təcrübəyə uyğunlaşdırılması, fəaliyyətin səmərəliliyinin artırılması, dövlətin və digər maraqlı tərəflərin mənafelərinin qorunmasını təmin edib. **AMEA-nın müxbir üzvü Akif Musayev** çıxışında aparılan islahatların iqtisadi inkişaf üçün çox vacib olduğunu deyib. Bildirib ki, iqtisadi inkişafın ayrı-ayrı mərhələlərində müxtəlif səpkili islahatların aparılması zərurəti yaranıb. Bunların əsasında 3 amil - hər bir subyekt üzrə fərdi proqram, institusional norma və qaydalar, həmçinin cəmiyyət tərəfindən bəyənilmiş strategiyalar dayanır. Hər üç amil üzrə sənədlərdə hesabatlılıq əksini tapır ki, bu da onların yerinə yetirilməsində şəffaflıq üçün çox vacib şərtdir. Aparılan islahatlar bu proqramların davamlılığından çox asılıdır.



Strateji Yol Xəritəsi qəbul olunan ərəfədə geniş ictimai müzakirələr aparılıb təklif və tövsiyələr səsləndirilib. Bütün təkliflər nəzərə alınmaqla hazırlanıb. Eyni zamanda, Strateji Yol Xəritəsində xüsusi olaraq hesabatlılıq da öz əksini tapıb ki, bu da şəffaflığın tərkib hissəsidir.

**Hesablama Palatasının sədri Vüqar Gülməmmədov** diqqətə çatdırıb ki, müasir dövrün mühüm tələblərindən olan hesabatlılıq və şəffaflıq məsələlərinə həsr olunan bugünkü konfrans dövlət maliyyə nəzarəti sistemində xüsusilə əhəmiyyətlidir. Belə ki, bütün ölkələrdə zəruri dövlət maliyyə nəzarəti sisteminin yaradılması dövlət quruculuğunun əsas funksiyalarından biridir və dövlətin nəzarət mexanizminin tərkib hissəsidir. Effektiv dövlət maliyyə nəzarəti sistemi hər bir dövlətin iqtisadi və maliyyə stabilliyinin və davamlı inkişafının mütləq şərtidir. Məlumdur ki, dövlət maliyyə nəzarəti sistemi daxili və kənar maliyyə nəzarətindən ibarət ikipilləli sistemdir.

Daxili dövlət maliyyə nəzarəti dedikdə icra hakimiyyəti orqanlarının və ya təşkilatların öz fəaliyyətlərinə nəzarəti başa düşülür. Bu fəaliyyəti həm funksiyalarına nəzarət səlahiyyəti də həvalə edilmiş icra hakimiyyəti orqanı, həm də müstəsna nəzarət səlahiyyəti verilmiş ixtisaslaşdırılmış orqanlar yerinə yetirə bilər. Hər iki halda bu orqanlar müəyyən mənada yuxarı icra hakimiyyəti orqanı ilə tabeçilik münasibətində olduqlarından təşkilati müstəqilliyə malik olmurlar.

"Dövlət auditinin artan əhəmiyyəti Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 2012-ci və 2014-cü illərdə qəbul edilmiş iki Qətnaməsi ilə də bir daha təsdiq edilib. Ali Audit Qurumlarının gücləndirilməsi yolu ilə dövlət idarəetməsində səmərəliliyin, nəticəliliyin və şəffaflığın təmin edilməsi haqqında olan bu qətnamələrdə ali audit qurumlarının dövlət idarəetməsinin səmərəliliyinin, hesabatlılığının, nəticəliliyinin və şəffaflığının inkişaf etdirilməsində əsas rol oynadığı qeyd edilib", - deyə palata sədri bildirib.

"Strateji yol xəritələrinin icrası prosesi: Mərkəzi Bankın fəaliyyətində hesabatlılıq və şəffaflıq məsələləri" mövzusunda məruzə ilə çıxış edən **Mərkəzi Bankın İdarə Heyəti sədrinin birinci müavini Alim Quliyev** diqqətə çatdırıb ki, qabaqcıl dünya təcrübəsi də göstərir ki, korporativ idarəetmənin ən mühüm təməl prinsiplərindən biri də şəffaflıq və hesabatlılıqdır. Ən mütərəqqi korporativ idarəetmə standartlarını öz işində daim rəhbər tutan Mərkəzi Bankda bu prinsiplərə böyük əhəmiyyət verilir. Mərkəzi Bank 1996-cı ildən öz fəaliyyətində maliyyə hesabatlılıq standartlarına tam keçidi təmin edib, 2000-ci ildən etibarən ölkənin bank sektorunda bankın rəhbərliyi ilə maliyyə hesabatlarının beynəlxalq standartları tam tətbiq olunur.

Strateji yol xəritələri üzrə Mərkəzi Banka həvalə olunmuş vəzifələri iki istiqamətdə qruplaşdırmaq olar: effektiv pul siyasəti rejiminin tətbiq edilməsi və dinamik və sağlam institutlardan ibarət maliyyə sisteminin formalaşdırılması. Effektiv pul siyasəti rejiminin tətbiqi iqtisadiyyatda neftin qiymətinin kəskin aşağı düşməsi ilə başlayan yenidənbalanslaşma prosesləri fonunda pul-məzənnə siyasətinin yeni çağırışlara uyğun olaraq sərtləşdirilməsi ilə bağlıdır. Mərkəzi Bank konservativ pul proqramına uyğun olaraq pul bazasının artım kanallarını nəzarətə götürüb.

"Faiz dərəcəsi alətinin transmissiya qabiliyyətinin yüksəldilməsi məqsədilə Mərkəzi Bank xüsusi monetar islahatlar proqramı hazırlayıb. Hazırda proqram Maliyyə Sabitliyi Şurası tərəfindən müzakirə olunur. Proqramın qəbulundan sonra ölkənin effektiv pul bazarının formalaşdırılması işləri başa çatdırılacaq", - deyə A.Quliyev diqqətə çatdırıb.

Dinamik və sağlam institutlardan ibarət maliyyə sisteminin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirlər maliyyə bazarlarında rəqəmsallaşmanın, bazar iştirakçılarının bilik və bacarıqlarının artırılmasına yönəldilib. Bu tədbirlərin məqsədi biznes subyektlərinin maliyyə resurslarına səmərəli çıxışının təmin edilməsi və iqtisadiyyatda maliyyə inklüzivliyinin artırılmasıdır.

Natiq Mərkəzi Bankın həyata keçirdiyi pul-məzənnə siyasəti, valyuta tənzimlənməsi sahələrində hesabatlılıq şəffaflıq məsələlərinə, son illər bu sahədə görülmüş işlərə, qarşıda duran vəzifələrə, eyni zamanda, strateji yol xəritələri ilə Mərkəzi Bankın məsul olduğu vəzifələrə toxunub.

Konfransda "Maliyyə məlumatlarında şəffaflıq: sifarişçilərinin maliyyə auditinə etimadının yüksəldilməsi", "Korporativ idarəetmədə hesabatlılıq və şəffaflıq", "Korrupsiyaya və çirkli pulların yuyulmasına qarşı mübarizədə auditin rolu", "Yeni iqtisadi şəraitdə audit və onun tətbiqi sahələrində ictimai etimadın təkmilləşdirilməsi", "Bələdiyyələrdə şəffaflığın artırılmasında auditin rolu və əhəmiyyəti" "Audit standartlarının tətbiqi təcrübəsi", "Korporativ idarəetmənin, şəffaflığın və hesabatlılığın təmin olunmasında oynadığı vacib rol" və s. mövzularda məruzələr dinlənilib.

**Konfrans çərçivəsində Azərbaycan Respublikası Auditorlar Palatası ilə Rusiya Auditorlar İttifaqı və Estoniya Auditorlar Assosiasiyası arasında əməkdaşlığa dair sənədlər imzalanıb.**

# Qulam İshaqzai: Azərbaycan Prezidentinin dayanıqlı inkişaf üçün göstərdiyi səylər alqışa layiqdir

Bakıda "Dayanıqlı İnkişaf Məqsədləri üzrə gender bərabərliyinin və qadın sağlamlığının təşviqinə "Şərq tərəfdaşlığı" ölkələri parlamentlərinin cəlb edilməsi" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.
"Mən dayanıqlı inkişaf üçün Azərbaycan Prezidentinin göstərdiyi səyləri alqışlayıram. Azərbaycanda Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb. Bu şura yüksək səviyyəli hesabat hazırlayıb. Şadıq ki, hesabatda əsas mesajlardan biri gender bərabərliyi idi". Bu fikirlər sentyabrın 22-də Milli Məclisdə "Dayanıqlı İnkişaf Məqsədləri üzrə gender bərabərliyinin və qadın sağlamlığının təşviqinə "Şərq tərəfdaşlığı" ölkələri parlamentlərinin cəlb edilməsi" mövzusunda beynəlxalq konfransda BMT-nin Bakıdakı rezident əlaqələndiricisi Qulam İshaqzai tərəfindən səsləndirilib.
Milli Məclisin (MM), Avronest Parlament Assambleyasının (PA) sosial məsələlər, təhsil, mədəniyyət və vətəndaş cəmiyyətləri komitəsinin, Əhali və İnkişaf üzrə Avropa Parlament Forumunun və BMT-nin Azərbaycandakı ofisinin birgə təşkilatçılığı ilə keçirilən konfransı açan MM-in gənclər və idman komitəsinin sədri Fuad Muradov tədbirin əhəmiyyətini vurğulayıb. Bildirib ki, tədbirdə qadınların sağlamlığının yaxşılaşdırılması və gender bərabərliyi üzrə qeydə alınan inkişaf göstəriciləri, qarşıya çıxan problemlər ətrafında çıxışlar və müzakirələr nəzərdə tutulur.
Ölkəmizdə gender bərabərliyinin təmin olunması istiqamətində görülən işlərdən danışan Milli Məclisin sədr müavini Bahar Muradova Azərbaycanın bu sahədə bir sıra beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq etdiyini bildirib. Qeyd edib ki, ölkəmizdə bu sahədə qarşıya qoyulan məqsədlərə nail olunması istiqamətində xeyli işlər görülüb. Azərbaycanın müvafiq təcrübəsi digər ölkələr üçün nümunə ola bilər. Beynəlxalq əməkdaşlığa önəm verən ölkəmiz bütün sahələrdə çox məsuliyyətli tərəfdaş olduğunu sübut edib.
Dayanıqlı inkişaf məqsədlərində gender bərabərliyinin mühüm amillərdən biri olduğunu söyləyən Milli Məclisin deputatı Məlahət İbrahimqızı ölkəmizdə qadın və uşaq hüquqlarının müdafiəsi, gender bərabərliyinin təmin edilməsi, məişət zorakılığına qarşı mübarizənin gücləndirilməsi sahələrində qazanılan nailiyyətlərin Azərbaycan Prezidenti İlham Əliyevin siyasi dəstəyi sayəsində əldə olunduğunu vurğulayıb.
Gender bərabərliyi insan hüquqlarının təmin edilməsində əsas şərtlərdən biridir. Bu barədə danışan xarici işlər nazirinin müavini Xələf Xələfov qeyd edib ki, Azərbaycanda bu sahədə görülən işlər ölkəmizdə gender məsələsinə göstərilən diqqətin təzahürüdür. Azərbaycan Avropa İttifaqının (Aİ) etibarlı tərəfdaşıdır. Azərbaycan və Aİ bir çox sahədə ümumi maraq kəsb edən və qarşılıqlı faydalara əsaslanan əməkdaşlıq edir. Hazırda əməkdaşlığa dair aparılan intensiv danışıqların yekunlaşması hər iki tərəfin maraqlarına uyğun yeni siyasi hüquqi çərçivənin yaranmasına xidmət edəcək.
"Cənub Qaz Dəhlizi" layihəsi çərçivəsində görülən işlər və Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rol bu sahədə əməkdaşlığın strateji tərəfdaşlıq səviyyəsinə çatdığını göstərir. Avropa İttifaqı Şərq Tərəfdaşlarının gələcəyi münaqişə bölgələrində sülh və sabitliyin bərqərar olmasından asılıdır. Ermənistan status-kvonu saxlamaqla məskunlaşma siyasəti aparır. Xaricdə yaşayan ermənilər və digərləri bu siyasətə uymamalıdır. Əks halda, bunun ağır nəticələri ilə qarşılaşacaqlar. Dünya birliyi sərhədlərin zorla dəyişdirilməsini heç zaman qəbul etməyəcək. Aİ işğalçıya qarşı münasibətdə ortaya qəti mövqe qoymalı və onu təcavüzkar siyasətdən çəkindirməlidir", – deyə X.Xələfov vurğulayıb.
Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova deyib ki, Dayanıqlı İnkişaf Məqsədləri ötən 15 il ərzində həyata keçirilmiş Minilliyin İnkişaf Məqsədləri (2000-2015-ci illər) əsasında yaradılıb. Bu müddət ərzində bir çox hədəflər üzrə nailiyyətlər əldə olunub. Ölkəmizdə mütləq yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə qədər azaldılıb, gender bərabərliyinin təşviqi və qadınların səlahiyyətlərinin artırılmasında tərəqqiyə nail olunub, uşaq və ana ölümü əhəmiyyətli dərəcədə azalıb.



Azərbaycanda ilk dəfə 1918-ci ildə qadınlara səsvermə hüququ verildiyini xatırladan BMT-nin Bakıdakı rezident əlaqələndiricisi Qulam İshaqzai bildirib ki, milli qanunvericilikdə bütün növ bərabərlik təmin edilir. Azərbaycan, həmçinin "Ayrı-seçkiliklərin aradan qaldırılması" Konvensiyasına qoşulub. Qadınlara qarşı zorakılığın və iş yerlərində gender bərabərsizliyinin aradan qaldırılması üçün daha çox iş görülməsinin vacibliyini diqqətə çatdıran Q.İshaqzai əlavə edib ki, qadınlar təhsilə çıxışda, iqtisadi qərarların verilməsində daha aktiv iştirak etməlidirlər. Azərbaycan gender bərabərliyi sahəsində xeyli irəliləyişlərə nail olub. Ölkə qanunvericiliyi qadınlara qarşı bütün növ ayrı-seçkiliyin aradan qaldırılmasına imkan verir.
Rezident Əlaqələndirici qeyd edib ki, heç bir qadın, uşaq diqqətdən kənarda qalmamalıdır. "Çox istərdik ki, hökumətlər, parlamentlər insanların ehtiyaclarına cavab verən, siyasi məfkurədən uzaq qanunların qəbul edilməsində birgə fəaliyyət göstərsinlər. Əsl dəyişikliyə nail olmaq üçün gender bərabərliyi diqqətdə saxlanılmalıdır", – deyə Q.İshaqzai vurğulayıb.
Tədbirdə Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestitus Yankauskas, Avropa Parlamentinin Cənubi Qafqaz üzrə nümayəndə heyətinin sədri Sacad Kərim, Bosniya-Herseqovina parlamentinin deputatı, Əhali və inkişaf üzrə Avropa Parlament Forumunun vitse-prezidenti Nermina Kapitanoviç, Parlamentlərarası İttifaqın təmsilçisi Laşlo Borbeli çıxış edərək, ölkəmizin milli qanunvericiliyində bütün növ bərabərliyin təmin edilməsini məmnunluqla vurğulayıblar.
Fasilədən sonra tədbir sessiyalar üzrə davam etdirilib. "Şərq tərəfdaşlığı ölkələrində qadın sağlamlığı və gender bərabərliyi siyasətlərinin tətbiqində əldə edilən uğur və çətinliklər" mövzusunda birinci sessiyanı Avropa Parlamentinin üzvü Hadi Hautala təqdim edib. Sonra "Parlamentlərin BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri üzrə gender bərabərliyi və qadın sağlamlığına nail olunmasında məsuliyyət, təcrübə və fəaliyyətlər" mövzusunda sessiyada çıxışçılar qadın hüquqlarının və sağlamlığının yaxşılaşdırılmasına yönəlik layihələrdən danışıblar. Sessiyanın sonunda bu sahədə dünya ölkələri təcrübəsinə həsr olunmuş slayd-şou nümayiş etdirilib.
Tədbir çərçivəsində keçirilən sessiyaların gedişində Milli Məclisin komitə sədrləri Hadi Rəcəbli, Ziyad Səmədzadə, Aqiyə Naxçıvanlı çıxış edərək, gender bərabərliyinin təmin edilməsində dövlət büdcəsinin rolu, dövlət və özəl sektorların əməkdaşlığı, ailələr arasında bu sahədə maarifləndirmənin gücləndirilməsi məsələlərindən danışıblar.

# AİB: Azərbaycanda iqtisadi artım 1% təşkil edəcək

Asiya İnkişaf Bankı (AİB) 2017-ci ildə Azərbaycanda ÜDM-in 1,3% azalacağını proqnozlaşdırır. Bu barədə yenilənmiş "Asian Development Outlook 2017 Update: Growth Outlook" icmalında qeyd edilir.
Öncə AİB 2017-ci il üçün Azərbaycanda ÜDM azalmasını 1,1% səviyyəsində gözləyirdi.
Bankın qiymətləndirməsinə görə, 2018-ci ildə Azərbaycanda iqtisadi artım 1% təşkil edəcək (aprel proqnozu - artım 1,2%).
"2017-ci ilin birinci yarısında Azərbaycanın ÜDM azalması 1,3% təşkil edəcək, bu da ötən ilin analoji dövrünün göstəricisindən yaxşıdır (resessiya 3,4% təşkil edib). İlk növbədə sənaye sahəsində 5,8% səviyyəsində azalma olub. Neft hasilatının azalması da 2017-2018-ci illər üçün ÜDM-in proqnozlarına təkrar baxmağa məcbur edir", - hesabatda qeyd olunur. AİB-in proqnozlarına əsasən, 2017-ci ilin yekunları üzrə Azərbaycanda orta illik inflyasiya 14% təşkil edəcək (aprel proqnozu - 9%), 2018-ci ildə 10%-dək azalacaq (aprel proqnozu - 8%).
Bankın qiymətləndirməsinə görə, cari ilin yekunları üzrə Azərbaycanın tədiyə balansının profisiti ÜDM-in 5,6%-i (aprel proqnozu ÜDM-in 5,9%-i), 2018-ci ildə 11%-i səviyyəsində proqnozlaşdırılır (aprel proqnozu - ÜDM-in 11,4%-i).
2016-cı ildə Azərbaycanda ÜDM-in həcmi 3,1% azalıb, inflyasiya 12,4% təşkil edib.
Cari ildə Azərbaycan hökuməti 2017-ci il üçün ÜDM artımını 1%, orta illik inflyasiyanı 7,3% səviyyəsində proqnozlaşdırır.



# Azərbaycanda yığılan traktorlar Türkiyəyə ixrac ediləcək



Bu ilin ilk 9 ayında Belarusdan Azərbaycana 1000-dən artıq kənd təsərrüfatı texnikasının ehtiyat hissələri gətirilərək, Gəncə Avtomobil Zavodunda (GAZ) yığılıb.
Belarusun "CTB" telekanalı bildirib ki, bu barədə yerli "MTZ" ASC-nin baş direktoru Fedor Domotenko məlumat verib.
Onun sözlərinə görə, ilin sonuna qədər Azərbaycana daha 460 Belarus traktoru tədarük ediləcək. Bu traktorlar daxili bazar üçün nəzərdə tutulmayıb. Belə ki, yaxın vaxtlarda Azərbaycanda yığılan Belarus traktorlarının Türkiyəyə ixrac edilməsinə başlanılacaq.
"Azərbaycan tərəfi ilə yeni müqavilədən əlavə Türkiyə bazarına çıxmaq üçün protokol da imzalamışıq. Tərəfdaşlarımız 5 mln. ABŞ dolları məbləğində maliyyələşmə həyata keçirəcəklər".
GAZ-ın Müşahidə Şurasının sədri Xanlar Fətiyev isə bildirib ki, yeni layihə çərçivəsində Türkiyəyə ildə 2,5-3 min traktorun ixracı nəzərdə tutulub. Bu rəqəmə yaxın 3 il ərzində nail olunacaq.

# Xurma üçün logistika mərkəzi tikilir

Göyçay rayonunda xurma istehsalçıları üçün logistika mərkəzinin tikintisi yaxın zamanlarda başa çatacaq.
Bunu Xurma İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Qadir Yusifov deyib.
Onun sözlərinə görə, Göyçay rayonunda xurma emalı fabrikinin tikintisi də davam etdirilir.
O qeyd edib ki, logistika mərkəzinin tikintisinin bu ilin oktyabrın sonunadək başa çatması planlaşdırılır.



# Azərbaycanda "Fiş bank" bazara daxil olacaq



Sentyabrın 24-də Prezident İlham Əliyevin iştirakı ilə Neftçala Sənaye Məhəlləsinin açılışı baş tutdu.
Neftçala Sənaye Məhəlləsinin 7 iştirakçısından biri də "Azproduct" MMC-dir. Şirkət məhəllənin ərazisində balıq emalı və konservləşdirilməsi müəssisəsini yaradıb.
Dövlətimizin başçısı 2017-ci ilin sonunadək istifadəyə veriləcək bu müəssisə ilə də tanış olub.

# Rusiya nəhəngi Azərbaycanda nümayəndəlik açır

"Qazprom" şirkətinin Direktorlar Şurası oktyabrın 2-də qiyabi şəkildə Azərbaycanda nümayəndəliyin açılmasını razılaşdıracaq.
"Interfax" agentliyi xəbər verir ki, "Qazprom" 2000-ci ildən 2006-cı ilədək Azərbaycana qaz nəql edib. Lakin bundan sonra "Şahdəniz" yatağının işə düşməsi ilə əlaqədar nəql dayandırılıb. 2010-cu ildən etibarən Azərbaycan Rusiyaya qaz nəqlinə başlayıb. Nəql olunan qaz Dağıstanın "mavi yanacaq"la təchiz olunması üçün istifadə olunub. 2013-cü və 2014-cü illərdə təmir işləri ilə əlaqədar nəql bir neçə dəfə dayandırılıb. 2015-ci ildə isə nəql olmayıb. Həmin il "AzMeCo" şirkəti Rusiyadan qaz idxal etmək istəyib. Danışıqlar "Qazprom" və SOCAR arasında aparılıb.




# Azərbaycan "MTZ"-dən 460 ədəd texnika alır

2017-ci ildə "Minsk Traktor Zavodu" ASC Azərbaycana əlavə olaraq 460 ədəd texnika,



həmçinin 60 ədəd pambıqyığan traktor tədarük edəcək.
**Bu barədə Belarus mətbuatında məlumat verilir.**
"Tərəfdaşımız olan Gəncə Avtomobil Zavodu ilə müqavilə imzalanıb. Məsələ bundadır ki, 2017-ci ildə imzalanan müqavilə artıq icra olunub. Tərəfdaşlarımız 460 ədəd texnika, o cümlədən 60 ədəd pambıqyığan traktora dair əlavə saziş imzalamaq məqsədilə Minska səfərə gəliblər. Biz bu il azərbaycanlı fermerlərin sifarişlərini yerinə yetirərkən pambıqyığan traktorları hətta təyyarə ilə tədarük etmişik", - "MTZ"-nin baş direktoru Fyodor Domotenko bildirib.

# Sumqayıt Texnologiyalar Parkında xarici bazarlara çıxış üçün böyük imkanlar var

"Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçilər İctimai Birliyi" (TÜİB) və "Azərbaycan-Türkiyə İş Adamları Birliyi" (ATİB) təşkilatlarının üzvlərindən ibarət nümayəndə heyəti Sumqayıt Texnologiyalar Parkında (STP) olub.
STP-dən bildiriblər ki, qonaqlara Sumqayıt Texnologiyalar Parkı haqqında ümumi məlumat verilib. Nümayəndə heyətinin istehsal prosesi ilə yaxından tanış olması üçün müəssisələrə ekskursiya təşkil edilib. İstehsal müəssisələri arasında Kabel Zavodu, Polimer Məmulatlar Zavodu, Qaynar Sinkləmə Zavodu və Ağır Maşınqayırma Zavodu qonaqların xüsusi marağına səbəb olub. İstehsal olunan məhsullar haqqında geniş məlumat verilib. Bildirilib ki, istehsal imkanlarına görə STP nəinki Azərbaycanda, hətta MDB regionunda qabaqcıl şirkətlərdən biridir. STP-nin istehsal etdiyi bəzi xüsusi məhsullar var ki, onların istehsalı dünyada çox az ölkədə təşkil olunub. İstehsal sahələrinin ekskursiyası zamanı qonaqları maraqlandıran çoxsaylı suallar mütəxəssislər tərəfindən ətraflı cavablandırılıb. Diqqətə çatdırılıb ki, 2009-cu ildən fəaliyyət göstərən Sumqayıt Texnologiyalar Parkında hazırda 13 zavod və 25-dən artıq istehsal sahəsi fəaliyyət göstərir. Yaradılmış istehsal sahələri və istehsal edilən məhsullar Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun inkişafını nümayiş etdirir və gələcək inkişafı üçün böyük imkanlar yaradır. Daha sonra STP-nin baş direktorunun birinci müavini Kamran Abbasovun iştirakı ilə keçirilən görüşdə təşkilatlara üzv şirkətlərlə gələcəkdə əməkdaşlıq əlaqələrinin qurulması və inkişafı məsələləri müzakirə olunub. Qonaqlar STP-nin istehsal gücünün onlarda böyük maraq oyatdığını, xüsusən xarici bazarlara çıxış üçün böyük imkanların olduğunu vurğulayıblar. Baş direktorun birinci müavini STP ilə təşkilatlara üzv şirkətlər arasında əməkdaşlıq əlaqələrinin qurulması və daha da genişləndirilməsi niyyətində olduqlarını qonaqların diqqətinə çatdırıb. Qeyd edib ki, STP-nin tərkibində olan müəssisələr istehsal etdiyi yüksəkkeyfiyyətli, beynəlxalq standartlara cavab verən məhsulları və xidmətləri ilə istənilən layihədə uğurla iştirak etməyə hazırdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" layihəsi çərçivəsində çap olunub.**

# Regionların inkişafı ölkədə uğurla həyata keçirilməkdədir

## *Cəlilabad rayonunda uğurlu nəticələr əldə edilmişdir*




Respublikanın cənub bölgəsində yerləşən Cəlilabad rayonu günü-gündən inkişaf edir. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəzərdə tutulan sənaye və kənd təsərrüfatının inkişaf etdirilməsi, tikinti-abadlıq işlərinin genişləndirilməsi, yeni iş yerlərinin açılması, elektrik enerjisi, qaz və su təchizatının yaxşılaşdırılması, meliorasiya tədbirlərinin həyata keçirilməsi, təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələrində görülən işlər daim diqqət mərkəzində saxlanılır.

Cəlilabad rayon iqtisadiyyatının əsasını təşkil edən aqrar bölmədə uğurlu nəticələr əldə edilmişdir. Belə ki, bitkiçilikdə yüksək məhsuldarlığa nail olunmuş, rayon üzrə 160,5 min ton buğda, 13,4 min ton arpa, 4,8 min ton vələmir, 8,7 min ton noxud, 1,2 min ton mərci və 98,2 min ton çiyələk istehsal edilmişdir. Artıq üzümçülər 1507 hektar sahədə yetişdirdikləri yüksək keyfiyyətli məhsulun satışına başlamışlar. Rayonda ənənəvi əkin sahəsi olan pambıqçılığın inkişaf etdirilməsi üçün ardıcıl iş aparılmış, dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan əlverişli torpaq sahələri müəyyənləşdirilmiş, sahələrin şumlanması, toxumla təchiz olunması və suvarılması üçün zəruri tədbirlər görülmüşdür. Belə ki, ötən il rayonda 426 hektar sahədə pambıq əkilmiş, 798 ton məhsul istehsal edilmişdir. Bu il pambıq əkini 500 hektara çatdırılmışdır. Hazırda sahələrdə yüksək səviyyədə aqrotexniki tədbirlər görülür. Cənab Prezident İlham Əliyevin Nazirlər Kabinetinin iclasında dediyi kimi, "Biz pambıqçılığın şöhrətini bərpa etdik. Artıq pambıqçılıqla məşğul olmaq istəyənlərin sayı artır. Bu, pambıqçılıq rayonlarında işsizliyi, demək olar ki, tamamilə aradan qaldırmaq üçün yaxşı şərait yaradır".

Kənd təsərrüfatının mühüm sahələrindən olan baramaçılığın inkişafına diqqət artırılmış, bu məqsədlə ilkin olaraq rayonun Təzəkənd kəndində 10 min ədəd tut ağacı əkilmiş, bu il küpçülərimiz tərəfindən 243 kiloqram barama istehsal edilmişdir.

Qeyd edək, ki Cəlilabad rayonunda tütün, barama, fındıq və zeytun istehsalının təşkili üçün lazım olan bütün şərait vardır. İxrac imkanları geniş olan bu sahələrin inkişaf etdirilməsi üçün rayon kənd təsərrüfatı idarəsi, yerli icra və bələdiyyə orqanlarının rəhbərləri müvafiq tədbirlər hazırlayıb həyata keçirməli və bu sahələrin əhəmiyyəti barədə torpaq mülkiyyətçiləri arasında maarifləndirmə işlərini gücləndirməlidirlər.

Kartofçuluğun inkişaf etdirilməsinin əhəmiyyətindən danışan dövlət başçısı demişdir ki, "Kənd təsərrüfatı məhsulları arasında ən çox gəlir gətirən sahələrdən biri də kartofçuluqdur. Bu sahəyə xüsusi diqqət göstərilməlidir". Bu il Cəlilabad rayonunda 4200 hektar sahədə kartof əkilmiş, 96,2 min ton kartof istehsal edilmişdir. Rayonda istehsal olunmuş kartofun 56,7 min tonu xarici ölkələrə satılmışdır ki, bu da ötən ildəkindən 48,0 faiz çoxdur. Rayonda əkinçiliyin strukturunda aparılan dəyişikliklər suvarma suyuna olan tələbatı da artırmışdır. Buna görə də əvvəlki illərdən fərqli olaraq, bu il rayona daha çox su limiti ayrılmış, 17 min hektardan çox əkin sahəsi suvarılmışdır. Kanalların su ötürücülüyünü artırmaq məqsədilə 206,4 kubmetr lildən təmizlənmə işləri görülmüşdür. "Aqrolizinq" ASC-nin Cəlilabad regional nümayəndəliyi tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına 70 faiz güzəştlə 3291 ton azot, 180 ton karbomid, 1414 ton digər gübrə, habelə 8,4 ton herbisidlər satılmışdır.

Heyvandarlara göstərilən qayğı və baytarlıq tədbirləri nəticəsində qaramalın sayı 99375 başa, davarların sayı isə 122955 başa çatdırılmışdır. Altı ay ərzində 7,9 min ton ət, 41,3 min ton süd və 12,8 milyon ədəd yumurta istehsal edilməsi əhalinin heyvandarlıq məhsullarına olan tələbatının ödənilməsində mühüm rol oynamışdır. Rayonda heyvandarlığın inkişafı istiqamətində işlər davam etdirilir. Günəşli kəndində müasir tələblərə cavab verən aqroparkın tikintisinə başlanılmış, hazırda son tamamlama işləri görülür. Burada 500 baş südlük, 2500 baş ətlik istiqamətli iribiynuzlu mal-qaranın saxlanılması nəzərdə tutulmuşdur. İlkin mərhələdə 262 baş südlük istiqamətli cins inək gətirilmişdir. Heyvandarlıq kompleksi tam fəaliyyətə başladıqdan sonra gündəlik 15 min litr süd istehsal edilməklə 100 nəfərdən artıq işçi işlə təmin olunacaqdır. Mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasında süni mayalanma işlərinin təşkili xeyli yaxşılaşmış, bu ilin altı ayı ərzində 1628 baş heyvan süni mayalandırılmış, 713 baş sağlam buzov alınmışdır. Lizinq yolu ilə rayona xaricdən 265 baş cins düyə gətirilmiş, ilin sonuna kimi daha 238 baş düyənin gətirilməsi nəzərdə tutulmuşdur.

Belə ki, rayonda kənd təsərrüfatı məhsulları istehsalı və toxumçuluqla məşğul olan "Green fired-KT" MMC fəaliyyətə başlamışdır. Ümumilikdə, 151 hektar sahəsi olan müəssisənin inzibati binasının tikintisinə yer ayrılmış, 2 artezian quyusu qazılmış, elektrik transformatoru quraşdırılmışdır. Dənli bitkilərin əkini üçün 120 hektar ərazidə toxumluq qarğıdalı əkilmişdir. Hazırda paxlalı bitkilər və un məmulatlarının qablaşdırılması, paketlənməsi zavodunun tikintisi davam etdirilir. Sifarişçisi rayonda fəaliyyət göstərən "Avanqard" MMC olan layihənin ilkin smeta dəyəri 1,65 milyon manatdır. Gündəlik istehsal gücü 10 ton olmaqla müəssisədə 50 nəfərin işlə təmin edilməsi nəzərdə tutulmuşdur. Muğan kəndində gündəlik istehsal gücü 5 ton olan bitki yağlarının istehsalı müəssisəsinin tikintisində son tamamlama işləri görülür. Müəssisəni xammalla təmin etmək üçün 70,0 hektar ərazidə günəbaxan əkilmişdir. Qarazəncir kəndində gündəlik istehsal gücü 450 kiloqram olan pendir sexinin fəaliyyətə başlaması və Uzuntəpə kəndində 50,0 hektar ərazidə balıqçılıq təsərrüfatının yaradılması da cari ildə həyata keçirilən tədbirlər silsiləsindəndir. Bütün bunların nəticəsində rayonda istehsal olunan məhsulların beynəlxalq standartlara uyğun qablaşdırılaraq, daxili və xarici bazarlara çıxarılması təmin ediləcək, sahibkarların bu sahələrə marağı daha da artırılacaqdır.

Onu da qeyd edək ki, rayonda əhalinin məşğulluğunun yaxşılaşdırılmasına diqqət artırılmış, bu ilin altı ayında 437 nəfər daimi işlə təmin olunmuş, 22 nəfərin sənədləri peşə hazırlığı kurslarına göndərilmiş, 24 nəfər ictimai işlərə cəlb edilmişdir. Dövlət başçısının birbaşa tapşırığı ilə ötən il və bu ilin birinci yarımilliyində 207 nəfər qaz istismarı sahəsində, 103 nəfər Cəlilabad və Göytəpə şəhər kommunal müəssisələri kombinatında, 16 nəfər mənzil istismarı sahəsində, 32 nəfər ekologiya sahəsində, 12 nəfər "Azərişıq" ASC-nin rayon şöbəsində, 14 nəfər yol istismarı idarəsində, 3 nəfər "Azərsu" MMC-nin rayon şöbəsində, 14 nəfər suvarma sistemləri idarəsində, 319 nəfər "Yeni-inşaat-C" MMC-də daimi işlə təmin edilmişdir.

Sahibkarlığın inkişafı məqsədilə biznes mühitinin daim yaxşılaşdırılması nəticəsində yüksək keyfiyyətli, ixracyönümlü və rəqabətqabiliyyətli məhsulların istehsal edilməsi dövlətin iqtisadi inkişaf strategiyasının əsas prioritetlərindəndir. Bu sahədə həyata keçirilən dövlət siyasəti sahibkarlığa yaradılmış fəaliyyət mühitinin daha da yaxşılaşdırılmasına, dövlət himayəsinin təkmilləşdirilməsinə və dövlət-sahibkar münasibətlərinin yaxşılaşdırılmasının təmin edilməsinə yönəldiləcəkdir. Bu baxımdan rayonda vətəndaşların azad sahibkarlıq hüquqlarının qorunmasına və sahibkarlara əlverişli şəraitin yaradılmasına xüsusi diqqət yetirilmişdir. Hazırda əmək qabiliyyətli hər bir rayon sakini qanunla nəzərdə tutulmuş şəkildə öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək, azad sahibkarlıq fəaliyyəti ilə məşğul olur. Bu il rayonda fəaliyyət göstərən bank filialları və kredit təşkilatları tərəfindən 3218 sahibkara 6 milyon 149 min 701 manat, o cümlədən Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 20 nəfərə 218 min manat məbləğində kredit verilmişdir. Sahibkarlara və iş adamlarına verilən güzəştli kreditlər əsasən aqrar sahədə istehsalın genişləndirilməsinə yönəldilmişdir.

Həmçinin, tikinti-abadlıq işləri və kənd yollarının təmiri birinci yarımildə də davam etdirilmişdir. Cəlilabad şəhərinin su və kanalizasiya sisteminin yenidən qurulması işinə gündəlik nəzarət edilməsi nəticəsində içməli su şəbəkəsi üzrə 98,9 faiz, su magistral xətti üzrə 99,0 faiz, kanalizasiya şəbəkəsi üzrə isə 97,8 faiz iş başa çatdırılmışdır. Həmçinin, şəhərin küçələrinə 165017 kubmetr çınqıl döşənmiş, 47095 kvadratmetr asfalt vurulmuşdur. Kənddaxili yollar təmir edilmişdir. Əhalinin fasiləsiz elektirik enerjisi ilə təmin edilməsindən ötrü Sabirabad kəndində SİP kabelləşmə işlərinə başlanılmış, 1100 metr kabel çəkilmiş, 200 ədəd yeni sayğac quraşdırılmış, Privolnoye və Alar kəndlərində 3 yeni transformator istehlakçıların istifadəsinə verilmişdir. Bundan əlavə, rayon ərazisində 101 transformator təmir edilmiş, 603 ədəd metal və dəmir-beton dayaq basdırılmış, 4200 metr yararsız naqil dəyişdirilmiş, 813 ədəd yeni sayğac quraşdırılmış, 319 qüsurlu sayğac yenisi ilə əvəz edilmiş, 512 sayğac möhürlənmişdir.

Lənkəran regional qaz istismar idarəsinin Cəlilabad xidmət sahəsi tərəfindən rayon ərazisindəki qaz xətlərində 1307 paqonmetr təmir-bərpa işləri aparılmış, 61 abonentə yeni qaz xətti çəkilmişdir. Günəşli kəndindəki qazpaylayıcı stansiyada yeni qaztənzimləyicisi quraşdırılmış, Gülməmmədli, Xəlilabad kəndlərinin qazlaşdırılması başa çatdırılmış, yaxın vaxtlarda bu kəndlərə təbii qazın verilişinə başlanılacaqdır.

Regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Qarşıdakı illərdə Cəlilabad rayonunun daha da inkişafı istiqamətində bir sıra tədbirlər həyata keçiriləcəkdir.

**Nailə CABBAROVA**

# "Avropa Avtobus Turu"nun nümayəndələri UNEC-in Zaqatala filialında



Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin "Avropa Avtobus turu 2017" layihəsi çərçivəsində turun nümayəndələri UNEC-in Zaqatala filialında olublar. Filialın tələbələri ilə görüşən layihə nümayəndələri onlara Avropa İttifaqı, Avropa ölkələrinin mədəniyyəti haqqında məlumat verib, təhsil imkanlarından danışıblar. Kiçik və orta sahibkarlıq üçün marketinq, brendinq, qeyri və sosial media marketinqi mövzusunda ustad dərsləri təşkil ediblər. Avropa İttifaqının Azərbaycanla əlaqəsi haqqında ətraflı məlumat verilən tədbirdə gənclər üçün "Erasmus+", "Avropanın Gənc Səfirləri" proqramlarının təqdimatları da təşkil olunub. Tələbələr biznes sirlərindən bəhs edən kitablar, Avropa İttifaqının fəaliyyətini özündə əks etdirən stend və rəsm sərgilərini maraqla qarşılayıblar.

# Azərbaycanın növbəti ixrac missiyası Macarıstana gedir



"Made in Azerbaijan" brendinin təşviqi məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən oktyabrın 1-dən 4-dək Macarıstana növbəti ixrac missiyası təşkil olunacaq. İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində Azərbaycan şirkətlərinin təmsilçiləri Macarıstan şirkətlərinin nümayəndələri ilə ikitərəfli görüşlər keçirəcək, ixracın təşkili məsələlərini müzakirə edəcək və iri marketlər şəbəkələrində olacaqlar. Qeyd edək ki, Macarıstanın paytaxtı Budapeştə təşkil olunan ixrac missiyasına müsabiqə əsasında seçilmiş və Azərbaycanda meyvə şirələri, təbii mineral sular, meyvə-tərəvəz məhsulları, şərab və digər spirtli içkilər, bal, çay, fındıq, tekstil və mebel istehsalı sahəsində fəaliyyət göstərən 20 şirkətin nümayəndələri daxildir.

# Avropada Azərbaycan təmsilçisi - UNEC tələbələrinin startapları





UNEC rektoru, professor Ədalət Muradov Azərbaycanı Böyük Britaniyanın paytaxtı Londonda keçirilən dünya çempionatında təmsil edəcək "Enactus UNEC" komandasının üzvləri ilə görüşüb.

Dünyanın 36 ölkəsinin təmsilçiləri arasında Azərbaycanı UNEC tələbələrinin təmsil edəcəyindən qürur duyduğunu bildirən rektor "Enactus" beynəlxalq proqramının bu günün və gələcəyin biznes liderlərini bir araya toplamaqla yanaşı, tələbələrin nəzəri biliklərini praktikada tətbiq etmək imkanı verdiyini qeyd edib. O, layihənin Azərbaycanın iqtisadi potensialının gücləndirilməsində gənclərin rolunu artırmaq, onların sahibkarlıq fəaliyyətini stimullaşdırmaq, azad sahibkarlığın ideyasını tələbələr arasında təbliğ etmək, təşkilatçılıq, idarəçilik və komandada işləmək qabiliyyətlərini inkişaf etdirmək baxımından da əhəmiyyətini vurğulayıb.

"Enactus Azərbaycan" XII Milli Yarışında UNEC komandasını "ən yaxşı biznes ideya" və "ən yaxşı innovativ layihə" nominasiyalarında qalib edən startap layihələrindən söz açan rektor, onların "Enactus" standartlarına tam cavab verdiyini diqqətə çatdırıb. Ə.Muradov, "Enactus" Dünya Kubokunda müxtəlif ölkələrin ən qabaqcıl şirkət nümayəndələrinin iştirak etdiyini bildirərək, UNEC tələbələrinin gənc sahibkar kimi bu nəhəng qurumlarla əməkdaşlığının mümkünlüyündən söz açıb. Rektor yarışlarda qonaq qismində iştirak edən dünyanın aparıcı şirkətlərinin top liderləri ilə görüşlərdə öz bilik və bacarıqlarını artıramaq üçün maksimum yararlanmağı tövsiyə edib.

UNEC tələbələrinin daima öz savad, intellekt, bacarıq və vətənpərvərlikləri ilə seçildiyini vurğulayan rektor onların bu mötəbər çempionatda da dünyanın müxtəlif ölkələrindən olan gənclər arasında fərqlənərək, Azərbaycanı layiqincə təmsil edəcəklərinə əminliyini ifadə edib, onlara uğurlar arzulayıb.

Görüşdə Beynəlxalq İqtisadiyyat Məktəbinin tələbələrindən ibarət "Enactus UNEC" komandasının üzvləri – Eşqin Cəfərov (komandanın kapitanı), Arzu Tofiqli, Məhəmməd Vəlizadə, Ayla Əliyeva, Tural Ömərov, Məryəm Tağıyeva və UNEC-in Karyera Mərkəzinin direktoru, komandanın məsləhətçisi Fuad Əliyev səfər hazırlığı ilə görülən işlərdən danışıblar.

# Президент Азербайджана Ильхам Алиев выступил на открытии 72-й сессии Генеральной Ассамблеи ООН

20 сентября в Нью-Йорке состоялось открытие 72-й сессии Генеральной Ассамблеи ООН.

В мероприятии приняли участие Президент Азербайджанской Республики Ильхам Алиев, первая леди Мехрибан Алиева и Лейла Алиева.

Ведущий мероприятия, постоянный представитель Индонезии при ООН Диан Триансях ДЖАНИ сказал: А сейчас Ассамблея заслушает выступление Президента Азербайджанской Республики, Его превосходительства Ильхама Гейдар оглу Алиева.

Прошу Протокол сопроводить Его превосходительство.

Для меня высокая честь от имени Генеральной Ассамблеи приветствовать Президента Азербайджанской Республики, Его превосходительство Ильхама Гейдар оглу Алиева и приглашаю его выступить перед Ассамблеей.

**Президент Азербайджана Ильхам Алиев выступил на открытии 72-й сессии Генеральной Ассамблеи ООН. Выступление**

Президента Ильхама Алиева

– Господин председатель.

Дамы и господа,

Уже более 25 лет Армения удерживает под оккупацией 20 процентов территории Азербайджана – Нагорный Карабах и другие семь районов нашей страны.

Нагорный Карабах – исконная и историческая земля Азербайджана. В результате армянской агрессии под оккупацией находятся около 20 процентов признанной на международном уровне территории Азербайджана. Более миллиона азербайджанцев оказались в положении беженцев и вынужденных переселенцев. Армения осуществила в Армении, Нагорном Карабахе и других семи районах Азербайджана политику этнической чистки против азербайджанцев.

Армения совершила в Ходжалы геноцид против азербайджанцев. Ходжалинский геноцид официально признан более чем 10 странами. 26 февраля 1992 года Армения, учинив убийство 613 мирных жителей Ходжалы, в том числе 106 женщин и 63 детей, совершила военное преступление. Один из военных преступников, совершивших это чудовищное деяние против человечества, – нынешний президент Армении.

Ведущие международные организации приняли резолюции, требующие вывода армянских вооруженных сил с территории Азербайджана. В 1993 году Совет Безопасности ООН принял 4 резолюции, требующие безотлагательного и безоговорочного вывода вооруженных сил Армении с территории Азербайджана.

Аналогичные постановления и резолюции приняли и другие международные организации, такие как Организация исламского сотрудничества, Движение неприсоединения, ОБСЕ, Парламентская ассамблея совета Европы и Европейский парламент. Армения не исполняет данные постановления и резолюции. Вот уже 24 года Армения игнорирует резолюции Совета Безопасности ООН и, к сожалению, не несет наказания за это.

В ряде случаев резолюции Совета Безопасности ООН исполняются в течение нескольких дней. Когда же дело касается нас, резолюции не исполняются уже 24 года. Это подход, основанный на двойных стандартах. Такой подход не приемлем. Против Армении должны быть приняты международные санкции. Одна из важных реформ ООН должна заключаться в создании механизма исполнения резолюций Совета Безопасности.

Армения делает все возможное для сохранения статуса-кво неизменным, препятствует субстантивным переговорам. Сопредседатели Минской группы ОБСЕ – Франция, Россия и США неоднократно заявляли о неприемлемости статуса-кво.

Спрашивается: как погрязшему в коррупции безуспешному государству, управляемому деспотичным и средневековым режимом, удается на протяжении многих лет нарушать международное право, игнорировать резолюции Совета Безопасности ООН и заявления ведущих стран мира? Ответ – двойные стандарты. Никакого международного давления на агрессора не оказывается, никакой международной санкции в отношении армянского диктаторства не применяется. Такой политике следует положить конец.

Подобная политика в отношении агрессора не только демонстрирует несправедливость, но и создает у армянского диктаторства иллюзию, словно они и впредь могут продолжать террористическую политику.

В апреле минувшего года Армения, совершив нападения на наши города и села, совершила очередное военное преступление на линии соприкосновения. В результате этой атаки были убиты 6 мирных азербайджанцев, в том числе ребенок. Кроме того, 26 гражданских лиц получили ранения. Были разрушены сотни наших домов.

Азербайджану пришлось защищать своих граждан. В результате успешного контрнаступления Азербайджан освободил ряд территорий в 3 оккупированных районах – Агдере, Физули и Джебраиле и поднял свой флаг на освобожденных территориях. Руководству Армении не следует забывать этот урок. В противном случае последствия очередных провокаций Армении окажутся для нее еще более плачевными.

Потерпев поражение на поле боя, Армения использует такую коварную политику, как нападение на наши города и села. 4 июля 2017 года Армения совершила целенаправленное нападение на село Алханлы Физулинского района с использованием 82 и 120-миллиметровых минометов и гранатометов, в результате чего погибли 2-летняя Захра Гулиева и ее бабушка.

7 августа 2017 года в сопредельным с Арменией Товузском районе 13-летний мальчик был ранен армянскими солдатами. Международной общественности следует положить конец армянскому фашизму и терроpу. Азербайджан привержен мирному урегулированию конфликта, однако, если военная провокация со стороны Армении будет продолжаться, то наша страна в соответствии с хартией ООН будет защищать своих граждан и при необходимости вновь накажет агрессора, как это было в апреле 2016 года.



Армяно-азербайджанский, нагорно-карабахский конфликт должен быть урегулирован на основе международного права, резолюций Совета Безопасности ООН. Территориальная целостность Азербайджана должна быть полностью восстановлена. Несмотря на большие трудности, вызванные армянской оккупацией, Азербайджан динамично и успешно развивается.

Азербайджан – активный член Организации Объединенных Наций. В 2011 году Азербайджан был избран в непостоянные члены Совета Безопасности ООН. За Азербайджан проголосовали 155 стран. Подавляющее большинство государств-участников продемонстрировало поддержку Азербайджана и его политики. Это был большой успех для страны, которой в то время исполнилось лишь 20 лет.

Азербайджан – современная, стабильная и демократическая страна. Развитие демократии и защита прав человека являются основными приоритетами нашего правительства. В Азербайджане полностью обеспечиваются все фундаментальные свободы, в том числе свободы выражения, печати, собрания и вероисповедания.

Азербайджан является одним из известных центров мультикультурализма в мире. Мультикультурализм – государственная политика в Азербайджане. Представители всех этнических групп и религий живут в Азербайджане в условиях мира гармонии. 2016 год в Азербайджане был объявлен «Годом мультикультурализма», а 2017 год – «Годом исламской солидарности».

В отличие от Армении, на территории которой, можно сказать, нет национальных меньшинств, известной как моноэтническая страна, государственной политикой которой является ксенофобия, Азербайджан – многонациональная страна, культурное, этническое и религиозное разнообразие общества – наше большое достояние. Армения, которая довела исламофобию до предела, совершила многочисленные акты вандализма, такие как разрушения всех мечетей на оккупированных территориях.

Азербайджан принял многочисленные международные мероприятия, направленные на усиления межрелигиозного диалога. В их числе можно отметить 7-й Глобальный форум Альянса цивилизаций ООН, Форум религиозных лидеров мира, четырежды проведенные форумы по межкультурному диалогу, Бакинский международный гуманитарный форум, который состоялся пять раз, и другие важные мероприятия.

Азербайджан, как участник Организации исламского сотрудничества и Совета Европы, в 2008 году дал старт поддержанному ООН Бакинскому процессу. Основная цель Бакинского процесса заключается в укреплении диалога, партнерства и сотрудничества между мусульманским миром и Европой.

В 2015 году Азербайджан принимал первые Европейские игры. В играх участвовали 6000 атлетов из 50 стран. В 2017 году Азербайджан принимал четвертые Игры исламской солидарности с участием примерно 3000 спортсменов, представляющих 54 страны. В течение двух лет в нашей столице Баку были проведены Европейские и Исламские игры. Это одновременно явилось большим вкладом в поощрение мультикультурализма.

Сборная Азербайджана заняла на первых Европейских играх второе, а на Играх исламской солидарности – первое место. Это свидетельствует о том, что Азербайджан является одной из ведущих спортивных стран мира. Еще одним доказательством наших спортивных успехов явилось то, что на Олимпийских играх «Рио-2016» Азербайджан по количеству медалей занял 14 место. Всего Азербайджан завоевал 18 медалей.

Большого развития Азербайджан добился в социальной и экономической сферах.

С 2004 года экономика Азербайджана увеличилась более чем втрое, в нашей стране было открыто более 1 миллиона 600 тысяч рабочих мест. Уровень безработицы – один из самых низких показателей в мире – 5 процентов. Одним из наших приоритетов являлось сокращение бедности. В 2004 году уровень бедности превышал 40 процентов. Сейчас он составляет лишь 5-6 процентов. Наши наличные валютные ресурсы равны ВВП страны. Внешний государственный долг – менее 20 процентов ВВП.

В 2009 году в отчете «Doing Business» Всемирного банка Азербайджан получил оценку, как «Ведущая реформистская страна мира». В «Отчете глобальной конкурентоспособности по 2016-2017 годам» Давосского всемирного экономического форума Азербайджан занял 37-е место среди 138 стран. В 2015 году за большие успехи в реализации Целей развития тысячелетия Азербайджан получил награду «Юг-Юг» того года и с 2010 года был включен в число стран категории высокого человеческого развития.

Стремительное развитие космической промышленности Азербайджана, 2 спутника телекоммуникации и наблюдения за поверхностью Земли – «Azerspace» и «Azersky» и третий спутник «Azerspace-2», вывод которого планируется в ближайшее время, позволили нашей стране войти в число членов космического клуба мира.

Сегодня Азербайджан экспортирует не только промышленную и сельскохозяйственную, но и интеллектуальную продукцию. Государственное агентство по оказанию услуг гражданам и социальным инновациям – «ASAN xidmət» является современной моделью общественных отношений и услуг.

Оказание в одном и том же месте 251 услуги, полная прозрачность, сведение коррупции и взяточничества до нуля сделали «ASAN xidmət» привлекательным для многих стран.

За 5 лет со дня создания «ASAN xidmət», являющийся чисто азербайджанским брендом, оказал 5 миллионам гражданам 1 миллион 600 тысяч услуг. Общее число обращений достигло 17 миллионов. Одобрение «ASAN xidmət» общественностью составляет 98 процентов.

В 2015 году за значительное упрощение государственных услуг, вклад в усовершенствование и творческий подход «ASAN» был удостоен Премии государственных услуг Организации Объединенных Наций.

Основная цель нашей политики заключается в дальнейшем улучшении благосостояния граждан. С 2004 года заработная плата в нашей стране увеличилась в 5,6, а пенсии – в 8,2 раза.

Без внешней финансовой поддержки мы возвели для беженцев и вынужденных переселенцев, страдающих от армянской оккупации, почти 100 новых поселков и городков. На сегодняшний день были улучшены условия жизни более 250 тысяч человек, им предоставлены новые дома и квартиры. В этих городках и поселках построены 152 школы, 59 медицинских центров и 60 садиков.

В целом, с 2004 года были построены или отремонтированы более 3000 школ, свыше 600 больниц и медицинских центров. Уровень грамотности в Азербайджане близок к 100 процентам. Ежегодно более 5 миллионов человек, то есть половина населения страны проходят медицинское обследование, полностью финансируемое из государственного бюджета.

Азербайджан играет важную роль на глобальном энергетическом рынке. Являясь надежным поставщиком нефти и газа на международных рынках, Азербайджан обеспечивает энергетическую безопасность для многих стран мира. Сегодня Азербайджан вместе с международными партнерами очень близок к завершению проекта «Южный газовый коридор». Данный проект, объем инвестиций которого достигает 40 миллиардов долларов, является одним из крупнейших инфраструктурных проектов мира.

Еще один важный приоритет связан с транспортом. Азербайджан, расположенный между Европой и Азией, мудро использует свое географическое положение для превращения в один из ведущих транспортных узлов.

В последние годы в Азербайджане было построено 6 международных аэропортов, проложено 11 тысяч километров современных шоссе и дорог. Азербайджан обладает на Каспийском море крупнейшим торговым флотом, состоящим из 270 судов.

Современный судостроительный завод в Азербайджане способен строить суда всех видов и размеров. Азербайджан модернизирует свою железнодорожную инфраструктуру. Подавляющее большинство нашей территории охвачено железными дорогами.

В следующим году мы сдадим в эксплуатацию крупнейший в Каспийском регионе международный торговый морской порт. Азербайджан вкладывает крупные инвестиции в транспортные коридоры Восток-Запад и Север-Юг. Проходящие через нашу страну оба маршрута станут кратчайшим путем с Востока на Запад и с Севера на Юг.

В заключение хочу подчеркнуть, что в минувшем году мы отметили 25-ю годовщину восстановления независимости. Успешное развитие Азербайджана еще раз свидетельствует о том, что успеха можно добиться лишь тогда, когда страна является свободной и независимой, когда судьба страны находится в руках ее народа. Самое большое счастье азербайджанского народа заключается в том, что мы живем в независимой стране, проводящей независимую политику, основанную на национальных интересах нашего народа.

## Еще одна новинка от Azercell: Абонентам предоставлен магазин "Azercell Eksklüziv" новой концепции

Компания Azercell представила в пользование очередной магазин, который отличается особым комфортом и инновационным стилем. Компания, которая всегда отличается новшествами в области обслуживания клиентов и придает большое значение обеспечению удовлетворенности абонентов, 26 сентября представил офис Sahil Franchise новой концепции. Президент компании Вахид Мурсалиев, выступивший на церемонии открытия, подчеркнул, что данный магазин является примером прозрачного бизнеса, построенного на основании взаимодоверия и профессионализма с компанией NLT, которая является надежным партнером компании Azercell на протяжении многих лет. По его словам, центр составленный на базе концепции, разработанной самой компанией Azercell, будет находиться под успешным руководством компании NLT и будет обслуживать клиентов на высоком уровне в любое время. Также, он отметил, что для обеспечения оперативного и качественного обслуживания абонентов будет продолжено увеличение количества офисов "Azercell Ekslüziv" (Azercell Exclusive) новой концепции по всей стране.



# PAŞA Bank növbəti bir ilkə imza atdı - 25 milyon dollar




Ölkənin aparıcı korporativ bankı - PAŞA Bankın törəmə təşkilatı olan "PASHA Yatırım Bankası" Azərbaycan qiymətli kağızlar bazarında öz istiqrazlarının yerləşdirilməsini uğurla həyata keçirmişdir. Bu yerli qiymətli kağızlar bazarının tarixində ilk emissiya halıdır ki, digər ölkədə qeydiyyatdan keçmiş və orada fəaliyyət göstərən təşkilat Azərbaycanda qiymətli kağızlar bazarı vasitəsi ilə vəsait cəlb edir.

İstiqrazların ABŞ dollarında denominasiya olunması və emitentin xarici qurum olması bu emissiyanı Azərbaycanda ilk avrobond emissiyası kimi səciyyələndirir. Bu istiqrazların yerləşdirilməsi zamanı anderrayter olaraq PAŞA Kapital İnvestisiya Şirkəti çıxış etmişdir.

İstiqrazlarının yerləşdirilməsini şərh edən PAŞA Bankın İdarə Heyətinin Sədri Taleh Kazımov qeyd edir ki, bu emissiya ilə Bank ölkənin qiymətli kağızlar bazarının inkişafına xidmət edən növbəti uğurlu bir təşəbbüsə imza atır.

"Bu və digər oxşar təşəbbüslərimizi diqqət mərkəzində saxlayan beynəlxalq maliyyə ekspertləri PAŞA Bank tərəfindən ölkənin qiymətli kağızlar bazarında həyata keçirdiyi layihələrini, o cümlədən korporativ istiqraz buraxılışını, market-meyker xidmətlərinin göstərilməsini yüksək qiymətləndirərək, Bankımızı dəfələrlə nüfuzlu mükafatlara layiq görüblər. Sevindirici haldır ki, bu növ fəaliyyətlərin davamı olaraq həyata keçirilmiş PASHA Yatırım Bankasının istiqrazlarının Azərbaycan bazarında yerləşdirilməsi uğurla başa çatdırılıb. Ümid edirik ki, gələcək nailiyyətlərimiz də ümumilikdə Azərbaycan iqtisadiyyatının, eyni zamanda, müştərilərimizin və tərəfdaşlarımızın inkişafına əhəmiyyətli töhfə verəcək", - T.Kazımov fikrini yekunlaşdırdı.

# Azərbaycanın sığorta bazarında yenidən artım başlayıb

Bu ilin yanvar-avqust aylarında Azərbaycanda fəaliyyət göstərən 22 sığorta şirkətinin xətti ilə 368,915 mln. manat sığorta haqqı toplanılıb.

Maliyyə Bazarlarına Nəzarət Palatasının məlumatına görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 3,6% çoxdur.

Xatırladaq ki, Azərbaycanın sığorta bazarında sonuncu dəfə artım bu ilin yanvar-aprel aylarının yekununda qeydə alınıb. 4 ay ərzində yerli sığortaçıların daxilolmaları 194,172 mln. manat təşkil edib ki, bu da 1 il əvvələ nisbətən 0,75% çox olub. Yanvar-may, yanvar-iyun və yanvar-iyul aylarının yekununda isə sığorta bazarı müvafiq olaraq 0,8%, 3,2% və 0,8% azalma nümayiş etdirib. Başqa sözlə, 3 aylıq fasilədən sonra bazarda yenidən artım başlayıb.

Təhlil olunan 8 ay ərzində sığorta şirkətlərinin həyata keçirdiyi ödənişlər isə 22,15% artaraq 167,061 mln. manat



təşkil edib. Hesabat dövründə sığorta bazarında toplanmış hər 100 manat sığorta haqqının 45,3 manatı ödəniş edilib. 2016-cı ilin müvafiq dövründə bu göstərici 38,4 manat olub.

Sığorta daxilolmalarının 68,6%-i və yaxud 252,978 mln. manatı könüllü sığorta növlərinin, 31,4%-i və yaxud 115,937 mln. manatı isə icbari sığorta növlərinin payına düşüb. Son 1 ildə könüllü sığorta bazarı 11,7% böyüyüb, icbari sığorta bazarı isə 10,5% kiçilib.

Sığorta ödənişlərinin isə 78,3%-i və yaxud 130,746 mln. manatı könüllü sığorta növlərinin, 21,7%-i və yaxud 36,314 mln. manatı isə icbari sığorta növlərinin payına düşüb. Ötən ilin yanvar-avqust aylarına nisbətən (illik müqayisədə) könüllü sığorta növləri üzrə ödənişlər 30,5% artıb, icbari sığorta növləri üzrə ödənişlər isə 0,7% azalıb.

Sığorta haqlarında həyat sığortasının payı 137,316 mln. manat və yaxud ümumi yığımların 37,2%-i qədər, qeyri-həyat sığortasının payı isə 231,6 mln. manat və yaxud ümumi yığımların 62,8%-i qədər olub. Son 1 ildə həyat sığortası bazarı 30,3% böyüyüb, qeyri-həyat sığortası bazarı isə 7,65% kiçilib.

Sığorta ödənişlərinin isə 47,3%-i və yaxud 79,05 mln. manatı həyat sığortasının, 52,7%-i və yaxud 88,011 mln. manatı isə qeyri-həyat sığortasının payına düşüb. Ötən ilin ilk 8 ayına nisbətən (illik müqayisədə) həyat sığortası üzrə ödənişlər 63,1% artıb, qeyri-həyat sığortası üzrə ödənişlər isə 0,3% azalıb.

# Bakıda keçirilən beynəlxalq ekoloji aksiya çərçivəsində Mərdəkan çimərliyi tullantılardan təmizlənib



Ölkənin bir sıra nüfuzlu şirkətləri, dövlət qurumları və qeyri-hökumət təşkilatları bir araya gələrək, bütün dünyada qeyd olunan Beynəlxalq Sahilyanı Təmizlik Günü çərçivəsində Mərdəkan çimərliyində genişmiqyaslı təmizlik aksiyası keçirib.

Bu il sözügedən aksiyada 500-dən artıq insan iştirak edib və sahilyanı ərazi 6 tona yaxın tullantıdan təmizlənib. Tədbirin təşkilatçıları qismində "Coca-Cola" şirkəti, "PAŞA Bank", "Bakcell" şirkəti, "ASAN School" könüllülük məktəbinin "Yaşıl ASAN" təşəbbüsü və "Let's Do It Azerbaijan" proqramı (letsdoitworld.org) çıxış edib. Aksiya Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Xəzər Rayon İcra Hakimiyyəti və "Təmiz Şəhər" ASC-nin dəstəyi ilə keçirilib. Bildirək ki, tədbirin informasiya dəstəyi Xəzər TV tərəfindən həyata keçirilib.

Artıq uzun illərdir ki, dünyanın bir çox ölkəsi hər il sentyabr ayının üçüncü şənbə gününü Beynəlxalq Sahilyanı Təmizlik Günü kimi qeyd edir. Sahilyanı Təmizlik Günü Yer kürəsində su hövzələri sahillərinin tullantılardan təmizlənməsinə yönələn ən irimiqyaslı könüllü hərəkatdır. Bu məqsədlə on minlərlə insan könüllü olaraq yaşadıqları ərazilərin sahillərini tullantılardan təmizləyirlər.

Azərbaycan da bu beynəlxalq ekoloji aksiyada artıq 8 ildir iştirak edir.

"Artıq səkkiz il ardıcıl olaraq "Coca-Cola" və ölkənin bir sıra nüfuzlu şirkət və təşkilatları ekoloji aksiya keçirərək, Xəzər dənizinin sahillərini tullantılardan təmizləyir. Bizim üçün cəmiyyətin ekoloji rifahı hər bir insanın və ümumilikdə bütün cəmiyyətin rifahı kimi vacibdir. Ümid edirik ki, ildən-ilə hər kəs ətraf mühitə daha məsuliyyətli yanaşacaq və gələcəkdə analoji aksiyaların keçirilməsinə ehtiyac qalmayacaq", - deyə "Coca-Cola" şirkətinin Qafqaz və Mərkəzi Asiya üzrə kommunikasiya meneceri Elşad Fərzəliyev qeyd edib.

"Bu il aksiya ilə bağlı daha geniş məlumatlandırma kampaniyası həyata keçirilib, daha çox iştirakçı cəlb olunub. Hər il daha çox insanın bu ekoloji aksiyaya qoşulduğunu görmək bizim üçün çox sevindirici haldır. Hər il bizə qoşulan yüzlərlə gəncimiz ətraf mühitin tullantılardan təmizlənməsinə nə qədər həssas yanaşırlarsa, dəniz sahillərini çirkləndirənlər də bu məsələyə o qədər həssas yanaşmalıdırlar. Mən istərdim ki, könüllülərimiz sadəcə bu tədbirə qoşulmaqla kifayətlənməsinlər, həm də öz yaxın ətraflarında olan insanları təbiəti qorumağa təşviq etsinlər. Bakcell şirkəti isə öz növbəsində qarşıdakı illərdə də bu böyük layihəyə dəstək verməyə hazırdır", - deyə "Bakcell" şirkətinin Korporativ kommunikasiya bölməsinin rəhbəri Süheylə Cəfərova bildirib.

"Xəzəri Qoruyaq!" şüarı altında Mərdəkan çimərliyində keçirilən aksiya çərçivəsində təxminən 6 tona yaxın tullantı yığılaraq, Balaxanı poliqonuna göndərilib.

Hər il çimərlik mövsümünün sonunda gənclərin, şirkət əməkdaşlarının, onların ailə üzvlərinin iştirakı ilə keçirilən sahilyanı təmizlik aksiyası ölkədə ekoloji durumunun yaxşılaşdırılması, əhalinin maariflendirilməsi və ətraf mühitə məsuliyyətlə yanaşma prinsiplərini təbliğ edir.

Bütün aksiya iştirakçıları təşkilatçılar tərəfindən nəqliyyat, idman köynəkləri, sərinləşdirici içkilər və qida, həmçinin təmizlik üçün lazımi ləvazimatlarla təmin olunmuşdur.

# "AtaBank"-ın müştəriləri ödənişsiz göz müayinəsindən keçdilər

"AtaBank" ASC-nin 500-ə yaxın müştərisi Korporativ Sosial Məsuliyyət çərçivəsində keçirilən kampaniyada ödənişsiz göz müayinəsindən keçdi. Layihə çərçivəsində müştərilər 2 həftə ərzində gözlərini tam ödənişsiz müayinə etmək fürsəti əldə etmişdilər.

Layihə Qurban Bayramı tətilindən sonra başlamışdır və növbəli şəkildə Bankın Dostluq və Nərimanov filiallarında həyata keçirilmişdir.

Layihə müddətində müayinədən keçməyən müştərilər istənilən vaxt klinikada 15% endirimlə müayinə oluna bilərlər. Bundan əlavə, göz əməliyyatına ehtiyacı olan AtaBank müştəriləri Dünyagöz Xəstəxanasından 10% endirim əldə edə bilərlər. Bunun üçün ödənişi sadəcə AtaBankın Visa və ya MasterCard plastik kartları vasitəsi ilə həyata keçirmək kifayətdir.

"AtaBank" ASC korporativ idarəetmə standartları çərçivəsində cəmiyyət, müştərilər və öz işçiləri qarşısında olan korporativ sosial məsuliyyətinə daim önəm verir.

# "Kapital Bank" konvertasiya komissiyasını ləğv edib

"Kapital Bank" bütün ödəniş kartları üzrə konvertasiya komissiyasını ləğv edib.

Bankdan bildiriblər ki, artıq müştərilər konvertasiya əməliyyatını bankın gündəlik alış-satış kursuna əsasən həyata keçirə biləcəklər. "Kapital Bank" "Visa International" və "MasterCard" beynəlxalq ödəniş sistemlərinin üzvüdür. Ödəniş kartlarını "Kapital Bank"ın filiallarından və ya bankın korporativ saytından onlayn sifariş etmək mümkündür. "Kapital Bank" Azərbaycan manatı, ABŞ dolları və avro valyutası əsasında ödəniş kartlarını 1, 2 və ya 3 il müddətinə təklif edir.

Qeyd edək ki, hazırda dövriyyədə "Kapital Bank"ın 3 milyona yaxın ödəniş kartı var. Prosessinq mərkəzinin inkişafı, həftənin bütün günləri fasiləsiz işləməsi, sabit fəaliyyəti milyonlarla müştəriyə xidmət göstərməsi müsbət amil hesab olunur. "Kapital Bank"ın ölkə üzrə 600-dək bankomatı, 9000-dək POS-terminalı mövcuddur.

Azərbaycanda ən böyük filial şəbəkəsinə malik olan "Kapital Bank" 92 filialı və 7 şöbəsi ilə müştərilərin xidmətindədir. Bankın məhsul və xidmətləri barədə daha ətraflı məlumat almaq üçün www.kapitalbank.az saytına, 196 Sorğu Mərkəzinə və ya bankın müxtəlif sosial şəbəkələrdəki səhifələrinə müraciət etmək olar.

# Bakcell beynəlxalq "ITU Telecom World 2017" sərgisində iştirak edir

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti 25-28 sentyabr tarixində Cənubi Koreya Respublikasının Busan şəhərinə keçirilən Beynəlxalq "ITU Telecom World 2017" sərgisinə qatılıb. Birləşmiş Millətlər Təşkilatının (BMT) informasiya-kommunikasiya texnologiyaları (İKT) sahəsində fəaliyyət göstərən xüsusiləşmiş təsisatı - Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) təşkilatçılığı ilə keçirilən "ITU Telecom World 2017"-də Azərbaycanı Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini cənab Elmir Vəlizadənin başçılıq etdiyi nümayəndə heyəti təmsil edir. 4 gün davam edəcək tədbirin açılış mərasimi 25 sentyabrda Busan şəhərinin BEXCO sərgi və konfrans mərkəzində baş tutub.

"ITU Telecom World 2017" çərçivəsində keçirilən sərgi üzv ölkələr və İKT sahəsində fəaliyyət göstərən şirkətlərə innovativ xidmətlər, tətbiqlər və həlləri nümayiş etdirməyə imkan verir. Qeyd edək ki, müxtəlif dövlətləri təmsil edən 500-ə yaxın şirkətin qatıldığı sərgidə Azərbaycanın da milli pavilyonu qurulmuşdur. Milli pavilyondakı Bakcell stendində sərgi iştirakçılarına Şirkətin xidmət və məhsulları təqdim olunur.

8000-ə yaxın dövlət rəsmisi, elm adamı və biznes liderlərin qatıldığı tədbirin əsas məqsədi kiçik və orta müəssisələrin texnoloji innovasiyalarını dəstələmək və rəqəmsal iqtisadiyyatın inkişafına töhfə verməkdir. Hər il keçirilən beynəlxalq tədbir iştirakçılar üçün biliklərin mübadiləsi, maraqlı müzakirələr, müxtəlif ölkələr, təşkilatlar və şəxslər arasında İKT sahəsində işgüzar əlaqələrin qurulmasına imkan verir. Tədbir zamanı süni intellektin telekommunikasiya şəbəkəsinə tətbiqi, əşyaların interneti sahəsində yeniliklərin və süni intellektin şəhər həyatına təsiri və ictimai xidmətlərin yüksək səviyyəyə çatdırılmasında oynadığı rol haqqında maraqlı sessiyalar və müzakirələr keçirilir.



# "Mentorlarla səhər yeməyi" Barama-dan startaplara növbəti dəstək

Azercell Telekom MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi PAŞA Bankın dəstəyi ilə startaplara dəstək məqsədilə daha bir layihəni həyata keçirir. Gənc startapların dünyagörüşünü artırmaq və onları öz layihələrini uğurla həyata keçirməyə yardımçı olmaq üçün Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi "Mentorlarla səhər yeməyi" layihəsinə başlayıb. Sentyabrın 22-dən başlayaraq hər ayın 3-cü cümə günü uğurlu biznes adamları və sahibkarlarla startapların işdən kənar 1.5 saatlıq görüşü təşkil olunacaq. Görüşdə startapların hal-hazırda üzərində işlədikləri layihələr müzakirə olunacaq, eləcə də gələcəkdə reallaşdırılması mümkün olan işlər üçün dəyərli məsləhətlər veriləcək. Görüşdə biznesin idarə olunması, investor və tərəfdaşların aşkar edilməsi, satışların artırılması, əlaqələrin genişləndirilməsi və s. üzrə mövzu üzrə müzakirələr də aparılacaq.

Sentyabrın 22-də baş tutan ilk görüşdə "Golden Pay" şirkətinin təsisçisi və İdarə Heyətinin Sədri, sahibkar Fərid İsmayılzadə startaplarla öz iş təcrübəsini bölüşüb. Qeyd edək ki, Fərid İsmayılzadə İngilis dili Gimnaziyanı bitirdikdən sonra Türkiyənin Bilkent Universitetində Beynəlxalq Münasibətlər ixtisası üzrə təhsilini davam etdirib. 19 yaşında nümunəvi tələbə kimi Bilkent Universitetini bitirdikdən sonra San Jose Dövlət Universitetində təhsil alıb. 2007-ci ildə Azərbaycanın ilk onlayn ödəmə şirkətini yaradıb. Bu gün GoldenPay ölkənin ən böyük online ödəmə xidməti təchizatçısıdır. 2011-ci ildə "hesab.az" portalını təsis edib.

Məlumat üçün bildirək ki, Azercell Telekom MMC-nin Barama İnnovasiya Mərkəzi Azərbaycanda sahibkarlığa dəstək vermək məqsədilə 2009-cu ildə Azercell şirkəti tərəfindən yaradılmış layihədir. Barama əsasən informasiya texnologiyaları sahəsində fəaliyyət göstərən layihələri və yaranmaqda olan şirkətləri – startapları dəstəkləyərək onların şirkətləşməsinə kömək edir. Barama fəaliyyətdə olduğu 8 il ərzində bir çox uğura imza atıb. Belə ki, mərkəzdə 30-dan çox layihə fəaliyyətə başlayıb, onlardan 20-i uğurla başa çatıb, hal-hazırda fəaliyyətdə olan 4 uğurlu şirkət yaranıb. 2014-cü ildən başlayaraq Barama öz fəaliyyətini daha üstün səviyyəyə daşıyaraq, professional biznes inkubatoru kimi formalaşdırıb və Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi adı altında ictimaiyyətə təqdim olunub.

# REKLAM MƏTNLƏRİNİN TƏRTİB EDİLMƏSİ XÜSUSİYYƏTLƏRİ



**(əvvəli ötən sayımızda)**

Reklam mətnlərində oyun texnikalarını sadalayaq:
A. Qrafik və fonetik təhriflər;
B. Qəsdən və ya bilərəkdən orfoqrafik təhriflər.

Oyun üsulu kimi orfoqrafik səhv reklamda iki əsas funksiyaya malikdir:

a) Bəzən o, əlavə konnotasiyaları (qədim latın sözü olub "connotatio", yəni "con" – "birlikdə", "noto" – "ifadə edirəm" deməkdir və dil vahidinin yanaşı gedən mənasını bildirir) tətbiq etməyə imkan verir (məsələn, "Dişinizi uşaqlıqdan qoruyun" – stomatoloji klinikanın reklamı)

b) Orfoqrafik səhvin digər funksiyası ondan ibarətdir ki, reklam ifadəsi (bir qayda olaraq, sloqan)) fonetik və ya qrafik baxımdan daha ahəngdar olsun (ifadədaxili təkrarlar yaratmaq).

C.Oyun morfologiyası: neologizmlər.

"The fill is the thirill" (likörlü "Fazerfills" konfetinin reklamı, "fill" sözü – "fillinq" sözünün qısaldılmış hissəsidir). D.Semantik uyğunlaşdırmanın oyun üsulları (paradoksun yaradılması üsulları).

Bəzən Azərbaycan dilində olan reklamda leksemlərin (lüğət vahidinin, yaxud lüğət tərkibinə daxil olan söz və söz birləşmələrinin) semantik uyğunlaşması qaydası onun yenidən mənalandırılmasına məruz qalır və bunların pozulması zamanı bəzən paradoks effekti (uyğun olmamanın uyğunluğu) yaranır. Onun əsasında sözlərin semantikasının metaforik (məcazi) və menanomik (ictimai razılıq qrammatikası, yaxud ictimai elmlərin metodologiyası) dəyişiklikləri, sinekdoxa (yunanca "nisbət", hərfi mənada "birgə anlaşma" deməkdir) modelləri və tropların (məcazi mənada işlənən söz və ifadələrin) digər növləri durur. Oyun effektinin yaradılması üçün reklam mətnində sözün məcazi mənasının dildə artıq möhkəmlənməsindən istifadə edilməməsi lazımdır. Sözün məcazi mənası yenidən yaradılmalıdır, o zaman ifadə qeyri-standart, oyun kimi qəbul olunacaqdır. Bu oyun üsulları qrupunda bir neçə semantik tipləri ayırmaq lazımdır.

1. Obyektə onun üçün xarakterik olmayan xassələrin və hərəkətlərin əlavə edilməsi. Bu üsul reklam mətnlərinin tərtib edilməsi zamanı istifadə olunan dil vasitələri ilə yaradılan, ən geniş yayılmış paradoks tipidir.

Dil oyunları bu məqsədlərə xidmət edir:
- Obyektin canlılığının yüksəlməsi;
- Obyektin canlılığının azalması;
- Ünvan sahibinin nəzarət sferasının genişlənməsi;
- Ünvan sahibinin duyğuları sferasının genişlənməsi;
- Qeyri-standart əmtəə təsərrüfatının yaradılması.

2. Qiymətləndirmə şkalaları ilə manipulyasiya etmə.
Bu şkalalar aşağıdakılardır:
- Yeni qiymətləndirmə şkalalarının yaradılması (dərəcələrə bölünməmiş anlayışların dərəcələrə bölünməsi);
- Şkalanın yeni qütbünün yaradılması.

3. Sözlərin çoxmənalılığı və ya iki sözün (söz birləşməsinin) həmahəngliyi, yaxud onların məna oxşarlığı (kalambur) oyunu. Kalamburun (cinasın) üç əsas semantik tipi fərqləndirilir:
- "Qonşuların" Kalamburu. Bu tip kalambur nadir hallarda mənanın çoxalmasına imkan verir. O, çox zaman mənasına görə həmahəng və oxşar səslənən sözlərin sadə cəmlənməsinə əsaslanır.
- "Maskanın" kalamburu "uduzulan" sözlərin və ifadələrin mənasının kəskin toqquşmasını tələb edir ki, burada ilkin anlaşma digəri ilə kəskin surətdə əvəz olunur. O, aldadılmış gözləmə effekti əsasında qurula bilər. Bu zaman adi hadisə səhv və ya absurd kimi "aşkar olunur", yaxud "ifşa olunur", həmçinin gülməli şok effektinə əsaslanır ki, bu zaman qeyri-adi və ya absurd hadisə adi, anlaşıqlı hadisəyə çevrilir.
-"Ailənin" kalamburu onunla xarakterizə olunur ki, "uduzulan" sözlər ("maska" tipindəki kimi) nadir halda toqquşur, lakin qalib yoxdur, mənaların heç biri digərini ləğv etmir.

Kalamburun köməyilə dolayı yolla reklamçı üçün vacib olan səbəb-nəticə əlaqəsi müəyyən olunur.

4. Üslub dissonansı (ahəngsizliyi). Üslub dissonansının (və ya üslub təzadının) yaradılmasının oyun üsulları bu kommunikativ vəziyyətdə xarakterik olmayan və ya konvensial baxımdan yol verilməyən dil vasitələrindən istifadə edilməsidir. Reklam mətnlərinin tərtib edilməsi zamanı nəzərə çarpan üslub təzadlarının üsulları aşağıdakılardır:
- Real və gözlənilən obyektiv modallıq (nitq məzmununun real varlığa münasibətini göstərən qrammatik kateqoriya) dissonansı;
- Danışanın real və gözlənilən kommunikativ rolunun dissonansı;
- Söyləmənin, yaxud fikrin real və gözlənilən kommunikativ funksiyasının dissonansı;
- Janr dissonansı (qlobal və ya lokal) və s.

**F.M.Qarayev,**
**BDU-nun dosenti**






# "Neft çatışmazlığına hazırlaşmaq lazımdır"



"Citigroup"a görə, gələn il neft bazarında OPEC-in hasilatı yenidən artıracağına görə neft bolluğu yaranacağı məsələsində narahat olanların özlərini neft çatışmazlığına hazırlaması lazımdır.

Citi Bankın qlobal əmtəə direktoru Ed Morze verdiyi bir müsahibədə deyib. Onun sözlərinə görə qrupdakı beş ölkə - Liviya, Nigeriya, Venesuela, İran və İraq bu il maksimum güclərində neft hasil edirlər.

Morze, "İstehsalda artım əvəzinə, 2018-ci ilə qədər tez bir zamanda bazarda bir qıtlıq əmələ gəlməsi riski var. Bu risk neft kəşfi və hasilatı işinə daha zəif sərmayə qoyan ölkələrdən qaynaqlanır" ifadəsini istifadə edib.

Qeyd edək ki, bir neçə ildir neft qiymətləri aşağı olduğundan neft axtarışına və hasilatına daha az investisiya yatırılır.

Morze, "Bazarda OPEC-in hasilatının əhəmiyyətli dərəcədə artacağı məsələsində bir qayğı var. Əksinə, bir təklif qıtlığı yarana bilər" şəklində danışıb.

# İkinci Bakı Şopinq Festivalının tarixi açıqlanıb

Oktyabrın 15-dən noyabrın 15-dək paytaxtda ikinci Bakı Şopinq Festivalı təşkil ediləcək.




Bu sözləri mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Dünya Turizm Gününə həsr olunmuş tədbirdə deyib.

Nazir bildirib ki, paytaxt sakinləri və şəhərimizin qonaqları üçün bir ay müddətində müvafiq şou-proqramlarla yanaşı, müxtəlif satış-yarmarkalar təşkil ediləcək. Bu dəfə də festival özünəməxsus yeniliklər, maraqlı mədəni tədbirlər və sürprizlərlə zəngindir. Azərbaycanın zəngin mədəniyyətini, turizm imkanlarını, eləcə də ticarət potensialını əks etdirəcək festival ilk günündən ziyarətçilərin və iştirakçıların böyük axınına səbəb olacaq. Dünyanın bir çox ölkəsindən turistlərin və alıcıların diqqətini cəlb edən festival zamanı əyləncə ilə alış-verişin vəhdəti hər bir iştirakçı üçün unudulmaz və səmərəli anlarla yadda qalacaq. Həm ziyarət, həm ticarət ənənəsində növbəti dəfə də yeniliklər olacaq.

Qeyd edilib ki, festival Prezident İlham Əliyevin 2016-cı il 1 sentyabr tarixində imzaladığı "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına əsasən keçirilir.






Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Baş nazir Artur Rasi-zadəyə həyat yoldaşı

**AİDA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"İqtisadiyyat" qəzetinin kollektivi baş nazir Artur Rasi-zadəyə həyat yoldaşı

**AİDA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**


Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500